

Milli azadlıqdan şirin nemət yoxdur!


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

22 sentyabr 2026-cı il, çərşənbə axşamı
№ 171 (7238)
Qiyməti 60 qəpik


# Vətən müharibəsinə sayılı günlər qalırdı...

Bax səh. 2





# Qələbədən quruculuğa:

## Azərbaycanın yeni liderlik mərhələsi

Bax səh. 2

# Azərbaycan qlobal məkanda...

Bax səh. 3

## Azərbaycan və Özbəkistanın yeni sazişi

Energetika naziri Pərviz Şahbazov ilə Özbəkistanın energetika naziri Şerzod Xocayevin rəhbərlik etdiyi nümayəndə heyəti arasında keçirilən görüşdə strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin dinamik inkişafına toxunulub, birgə layihələrin icrası, o cümlədən, enerji əməkdaşlığının müəyyən edilmiş hədəflərə uyğun irəlilədiyi vurğulanıb.Tərəflər neft-qaz və elektroenergetika, bərpaolunan enerji, enerji səmərəliliyi və tənzimləmə, qarşılıqlı investisiyalar, eləcə də digər istiqamətlər üzrə əməkdaşlığın cari vəziyyətinin qənaətbəxş olduğunu diqqətə çatdırıblar. Ş. Xocayev Azərbaycanın Avropaya yaşıl elektrik enerjisinin ötürülməsi məqsədilə Qara dəniz, həmçinin Türkiyə istiqamətində inkişaf etdirdiyi enerji...

Bax səh. 3



## Beynəlxalq hüququn gücü: prinsiplər və reallıqlar arasında

Bax səh. 4

## 3,7 milyard avrodan çox...

### Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycandakı investisiyalarını artırır

Bax səh. 5

## 2027-ci ildə büdcə gəlirlərinin əsas istiqamətləri

Məlum olduğu kimi Maliyyə Nazirliyi (MN) 2027-cı ilin dövlət büdcəsi layihəsini Nazirlər Kabinetinə təqdim edib. Eyni zamanda, "2027-ci ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair Açıqlama" sənədi ictimaiyyətə açıqlanıb.

Büdcə sənədlərində əsas strateji baxış ölkə iqtisadiyyatının müxtəlif sahələri üzrə qəbul edilmiş strategiya və dövlət proqramlarının icrası üçün maliyyə təminatının yaradılmasıdır. Bu strateji yanaşmaya əsasən, ortamüddətli büdcə siyasətinin əsas məqsədlərindən biri kimi gəlirlər üzrə siyasətin daha da təkmilləşdirilməsi və optimallaşdırılmasıdır.

Həmin kurs üzrə 2027-ci ildə gəlirlər sahəsində həyata keçiriləcək əsas istiqamətlər ölkənin iqtisadi inkişafını...

Bax səh. 5




## Rusiya iqtisadi sanksiyalar qarşısında...

Bax səh. 6



## Fransanın dövlət borcu rekord həddə çata bilər

Bax səh. 6

# Qələbədən quruculuğa:
## Azərbaycanın yeni liderlik mərhələsi



Azərbaycanın son illər keçdiyi tarixi yol yalnız ərazi bütövlüyünün və suverenliyin bərpası ilə məhdudlaşmır, bu yol həm də ölkənin regionda və daha geniş beynəlxalq məkanda siyasi, mənəvi və diplomatik çəkisinin əhəmiyyətli dərəcədə artması ilə xarakterizə olunur. Bakıda Türk Dövlətləri Təşkilatının müsəlman dini rəhbərlərinin VII toplantısı və Seyid Yəhya Bakuviyə həsr olunmuş beynəlxalq konfransın keçirilməsi bu reallığın mühüm göstəricilərindən biridir.

Bu tədbirlərin eyni vaxtda Bakıda keçirilməsi təsadüfi təsir bağışlamır. Burada iki mühüm xətt birləşir: Azərbaycanın zəngin mənəvi-mədəni irsi və müasir dövlət siyasətinin yaratdığı beynəlxalq əməkdaşlıq platforması. Prezident İlham Əliyevin çıxışında da məhz bu bağlılıq xüsusi vurğulanır. Azərbaycan tarixən türk dünyası ilə Qafqaz arasında mühüm coğrafi və mədəni körpü rolunu oynayıb. Bu gün isə həmin təbii üstünlük siyasi diplomatiya və fəal beynəlxalq təşəbbüslərlə daha geniş məna qazanır.

Azərbaycanın bu prosesdə fərqləndirici cəhəti onun müxtəlif platformalarda birləşdirici və dialoq yönəlmiş mövqe nümayiş etdirməsidir. Türk dünyası ilə əlaqələrin dərinləşdirilməsi, islam həmrəyliyinin möhkəmləndirilməsi, dini və mədəni dialoqun təşviqi artıq Azərbaycanın xarici siyasətinin mühüm istiqamətlərindən birinə çevrilib. Bu siyasətin arxasında ardıcıl dövlətçilik xətti dayanır. Azərbaycanın 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etməsi də bu baxımdan xüsusi əhəmiyyət daşıyırdı. Prezidentin həmin tədbiri yalnız idman yarışı deyil, müsəlman ölkələri arasında birlik və həmrəyliyin təzahürü kimi qiymətləndirməsi Azərbaycanın beynəlxalq təşəbbüslərinin mahiyyətini aydın göstərirdi. Qarşıdakı dövrdə İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşünün Bakıda keçirilməsi isə Azərbaycanın bu istiqamətdə qazandığı etimadın növbəti ifadəsi kimi qiymətləndirilə bilər. Lakin Azərbaycanın bugünkü nüfuzunu yalnız diplomatik tədbirlərin coğrafiyası ilə izah etmək mümkün deyil; bu nüfuzun ən mühüm dayaqlarından biri ədalətin və suverenliyin bərpasıdır.

Otuz il ərzində həllini tapmayan Qarabağ münaqişəsi Azərbaycanın dövlət siyasətinin qarşısında duran ən mürəkkəb məsələlərdən biri idi. Uzun illər ərzində aparılan danışıqlar nəticə vermədi. Nəhayət, Azərbaycan öz hərbi-siyasi gücünə, xalqın birliyinə və dövlət iradəsinə əsaslanaraq ərazi bütövlüyünü təmin etdi. Burada Prezident İlham Əliyevin siyasi liderliyinin əhəmiyyəti xüsusi vurğulanmalıdır, çünki hərbi qələbə ilə siyasi nəticənin əldə olunması eyni proses deyil. Müharibədə qazanılan üstünlüyü davamlı sülhə, regional əməkdaşlığa və quruculuğa çevirmək daha mürəkkəb mərhələdir. Məhz bu mərhələdə siyasi liderliyin ikinci tərəfi - sülh diplomatiyası ön plana çıxır.

Konfrans iştirakçılarından birinin Prezident İlham Əliyevin fəaliyyətini xarakterizə edərkən səsləndirdiyi “Siz müharibədə sərkərdə olduğunuz kimi sülhdə də sərkərdəsiniz” fikri bu baxımdan diqqətəlayiqdir. Digər çıxışda isə Azərbaycan Prezidenti həm müharibədə, həm də sülh prosesində göstərdiyi liderliyə görə yüksək qiymətləndirilib. Bu qiymətləndirmələrin əhəmiyyəti ondadır ki, onlar yalnız Azərbaycan daxilindən yox, beynəlxalq dini və ictimai xadimlərin dilindən də səslənir. Qarabağ isə Azərbaycanın yeni mərhələsinin ən canlı nümunəsidir. Qarabağın işğaldan azad edilmiş ərazilərdə bu gün aparılan genişmiqyaslı bərpa və quruculuq işləri hərbi qələbənin real sosial nəticələrini nümayiş etdirir. Ağdamın yenidən qurulması xüsusilə simvolik məna daşıyır. Prezidentin çıxışında qeyd edildiyi kimi, bərpa prosesinə 2021-ci ildən başlanıb və ilk bərpa olunan obyektlərdən biri Ağdam məscidi olub. Artıq dağıdılmış və ya ciddi zərər görmüş 12 məscidin bərpası və yenidən qurulması həyata keçirilib. Bu faktın siyasi və mənəvi yükü böyükdür, çünki məscidin bərpası yalnız memarlıq abidəsinin yenilənməsi anlamına gəlmir; bu, dağıdılmış şəhərin, qırılmış həyatın və pozulmuş tarixi yaddaşın bərpasıdır. Daha geniş mənada Qarabağda həyata keçirilən quruculuq siyasəti Azərbaycanın dövlət modelinin mühüm xüsusiyyətini ortaya qoyur: qələbə dağıtmaq üçün deyil, qurmaq üçün qazanılıb.

Bu gün Böyük Qayıdış proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıtması bu siyasətin ən mühüm nəticələrindən biridir. Prezidentin verdiyi məlumata əsasən, Qarabağ və Şərqi Zəngəzurun artıq 48 şəhər və kəndində həyat bərpa olunub və 90 mindən çox insan həmin ərazilərdə yaşayır.

Bu rəqəmlər sadəcə statistika deyil, onların arxasında evlərinə qayıdan insanlar, açılan məktəblər, yaradılan iş yerləri, bərpa olunan məscidlər, yenidən qurulan şəhərlər və gələcəyə üz tutan həyat dayanır. Azərbaycanın siyasi uğurunun mahiyyəti də məhz burada görünür. Dövlət müharibədən sonra intiqam siyasəti deyil, quruculuq və sülh siyasəti yürüdür. Prezident çıxışında da Azərbaycan tərəfinin müharibə zamanı əsas hədəfinin hərbi birləşmələr olduğunu, mülki əhaliyə qarşı müharibə aparılmadığını vurğulayıb. Bu yanaşma Azərbaycanın qələbədən sonrakı davranışının mühüm siyasi xüsusiyyətini göstərir.



Azərbaycanın qarşısında indi yeni və daha geniş vəzifələr dayanır. Əldə edilmiş sülh imkanlarını möhkəmlətmək, regionda kommunikasiyaları inkişaf etdirmək, türk dünyası ilə inteqrasiyanı dərinləşdirmək və islam aləmində həmrəyliyi gücləndirmək. Bu baxımdan Prezident İlham Əliyevin liderliyi yalnız Azərbaycanın daxili inkişafı ilə ölçülmür, onun fəaliyyəti Azərbaycanın beynəlxalq gündəliyinin formalaşdırılmasında da özünü büruzə verir. Bakının ardıcıl olaraq müxtəlif beynəlxalq tədbirlərə ev sahibliyi etməsi Azərbaycanın artıq mühüm siyasi və diplomatik mərkəzlərdən birinə çevrildiyini göstərir. Konfrans iştirakçılarının çıxışlarında da Azərbaycan “konfranslar paytaxtı” kimi xarakterizə edilir və Prezidentin liderlik keyfiyyətləri xüsusi qeyd olunur. Burada mühüm bir məqam var: Azərbaycan öz milli maraqlarını qorumaqla yanaşı regional əməkdaşlıq üçün də platforma yaratmağa çalışır. Türk dövlətləri, müsəlman dünyası, Qafqaz ölkələri və digər tərəfdaşlarla münasibətlər bu siyasətin müxtəlif istiqamətləridir.

Seyid Yəhya Bakuvi irsinin müasir dövrdə yenidən gündəmə gətirilməsi də təsadüfi deyil. Qarşıdurmaların və parçalanmaların artdığı dünyada onun irsindəki mənəvi dəyərlər, dialoq və insanları yaxınlaşdıran yanaşmalar xüsusi aktuallıq qazanır. Konfrans iştirakçıları da bu irsin müasir dünyada əhəmiyyətini vurğulayıblar. Beləliklə, Bakıda keçirilən tədbirlərin siyasi və mənəvi məzmunu bir-birini tamamlayır. Bir tərəfdə Azərbaycanın qədim və zəngin mədəni irsi, digər tərəfdə isə öz mövqeyini inamla müdafiə edən müasir, güclü dövlət dayanır. Bu iki xəttin kəsişdiyi nöqtədə Azərbaycan Prezidentinin siyasi liderliyi görünür. İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan əvvəlcə ərazi bütövlüyünü və suverenliyini bərpa etdi, sonra qələbəni quruculuq və diplomatiya mərhələsinə daşıdı. Bu gün Qarabağda yeni şəhərlər salınır, insanlar öz torpaqlarına qayıdır, məscidlər bərpa olunur, Bakıda beynəlxalq tədbirlər keçirilir, Azərbaycan türk və islam dünyası arasında əməkdaşlığın möhkəmlənməsinə öz töhfəsini verir. Bu, sadəcə bir siyasi mərhələnin yekunu deyil, yeni Azərbaycanın formalaşmasıdır və həmin Azərbaycanın əsas siyasi xüsusiyyəti güclə diplomatiyanı, milli iradə ilə beynəlxalq əməkdaşlığı, tarixi yaddaşla gələcəyə baxışı bir araya gətirməsidir.

Prezident İlham Əliyevin liderliyini xarakterizə edən əsas cəhət də məhz budur: qələbəni son məqsəd kimi yox, daha böyük quruculuğun başlanğıcı kimi görmək. Azərbaycanın bugünkü reallığı göstərir ki, tarix yalnız xatırlanmır, tarix həm də yenidən qurulur. Qarabağda dirçələn həyat, Bakının beynəlxalq tədbirlərə ev sahibliyi etməsi və Azərbaycanın türk-islam dünyasında artan rolu bunun ən aydın göstəriciləridir. Qələbədən sonra qarşıda yeni məsuliyyət mərhələsi açılıb. Azərbaycan bu mərhələyə inamla qədəm qoyur. Bu inamın əsas dayaqları isə dövlətçilik iradəsi, xalq birliyi, gücü iqtisadiyyat, müdafiə qabiliyyəti və düşünülmüş xarici siyasətdir. Məhz buna görə Azərbaycanın bugünkü uğurlarına yalnız keçmiş qələbənin nəticəsi kimi baxmaq kifayət deyil. Qarabağın bərpası, Böyük Qayıdış və beynəlxalq diplomatik fəallıq Azərbaycanın qarşıdakı onilliklər üçün yeni inkişaf modelinin əsasını formalaşdırır. Bu modelin mərkəzində isə güclü dövlət, milli həmrəylik və Prezident İlham Əliyevin müəyyən etdiyi strateji siyasi xətt dayanır.

***Kəramət Qənbərov,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının sənədlərlə iş və arxiv şöbəsinin müdiri***



# Vətən müharibəsinə sayılı günlər qalırdı...

2020-ci il sentyabrın 22-də Vətən müharibəsinin başlamasına cəmi 5 gün qalırdı. Sentyabrın 27-də Ermənistanın keçmiş təmas xətti boyunca növbəti irimiqyaslı hərbi əməliyyatlara başlamasına, Azərbaycan Ordusunun mövqelərinə və mülki yaşayış məntəqələrinə atəş zərbələri endirməsinə cavab olaraq Prezident, Ali Baş Komandan İlham Əliyevin göstərişləri əsasında Azərbaycan Ordusu tərəfindən əks-hücum əməliyyatı işə düşdü. “Dəmir Yumruq” adlandırılan bu əməliyyat şanlı Zəfərimizlə sonuclanan Vətən müharibəsinə çevrildi.

## Azərbaycan xalqı və dövləti işğal faktı ilə barışa bilməzdi və barışmadı da!

İşğal faktına baxmayaraq, respublikamız 30 ilə yaxın müddətdə ATƏT-in artıq tarixin arxivinə atılmış Minsk qrupu formatında aparılan danışıqlarda konstruktivlik göstərərək Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə nizamlanmasına çalışdı. Bununla belə, danışıqlar heç bir nəticə vermədi, əksinə, aydın şəkildə müşahidə edildi ki, Ermənistan tərəfi, sadəcə olaraq, vaxt udmaq istəyir, keçmiş status-kvonu möhkəmləndirməyə, əbədi etməyə çalışır.

Azərbaycan xalqı və dövləti işğalla barışa bilməzdi və barışmadı da! Ölkəmizdə danışıqlar prosesi ilə paralel şəkildə iqtisadiyyatın gücləndirilməsi, müasir, istənilən vəzifəni yerinə yetirməyə qadir olan ordu quruculuğu siyasəti həyata keçirildi. 1993-cü ilin yayında xalqın təkidi təlbi ilə ikinci dəfə Azərbaycanın siyasi rəhbərliyinə gələn böyük siyasətçi Heydər Əliyev qısa müddətdə vətəndaş həmrəyliyini təmin etməklə ölkənin perspektiv inkişafı üçün fundamental zəmin yaratmışdı. Sonrakı mərhələdə bu yolu uğurla davam etdirən Prezident İlham Əliyev ölkənin ərazi bütövlüyünün bərpası üçün ilk növbədə, iqtisadi gücün vacibliyini bəyan etdi. Düzgün strategiya və düşünülmüş məqsədyönlü siyasət nəticəsində Azərbaycan güc toplamağa başladı, iqtisadi müstəqillik təmin edildi. Ölkənin iqtisadi cəhətdən yüksəlişi ordu quruculuğunda da dönüşə səbəb oldu, Azərbaycan Ordusunun arsenalı ən müasir silah və hərbi texnika ilə gücləndirildi, hərbçilərin bilik və bacarıqları artırıldı, onların sosial müdafiəsinin, iş şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atıldı. Azərbaycanın müdafiə sənayesi inkişaf etdirildi, ordunun tələbatının böyük hissəsi daxili istehsal hesabına təmin olundu. Milli müdafiə sənayesi 1000-dən çox adda hərbi təyinatlı məhsullar istehsal etməyə başladı və müasir silahların ixracatçısına çevrildi.

Ən əsası isə Azərbaycan xalqı ölkənin ərazi bütövlüyünü bərpa etmək üçün sarsılmaz əzm və həmrəylik göstərdi. Prezident İlham Əliyevin rəhbərliyi dövründə yetişən, formalaşan vətənpərvər gənclər Vətəni qorumaq üçün hər cür fədakarlığa hazır olduqlarını dönə-dönə sübut etdilər.

Eyni zamanda, ötən dövr ərzində çoxşaxəli, prinsipial, dürüst xarici siyasətin yürüdülməsi, beynəlxalq təşkilatlarla və xarici dövlətlərlə fəal işin aparılması, sıx əlaqələrin qurulması, həyata keçirilən regional enerji və kommunikasiya layihələri respublikamızın etibarlı tərəfdaş kimi mövqeyini xeyli gücləndirdi, ölkənin nüfuzunu artırdı, bölgədə Azərbaycanın iradəsi həlledici amilə çevrildi.

Bütün bu amillər Azərbaycanın mütləq Qələbəsini tam şərtləndirdi və onun əldə edilməsi zaman məsələsinə çevirdi.

## Düşmən təxribatları artırırdı

Sülh tərəfdarı olan Azərbaycan dəfələrlə Ermənistanı işğal etdiyi ərazini geri qaytarmağa çağırdı. Ermənistan isə nəinki onlara məhəl qoymadı, əksinə, “yeni torpaqlar uğrunda yeni müharibə” ritorikasına keçdi. Ermənistanın baş naziri Nikol Paşinyanın 2019-cu il avqustun 5-də Xankəndidə “Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə” açıqlaması qarşı tərəfin işğalçılıq siyasətinin ən bariz etiraflarından birinə çevrildi. Azərbaycan Prezidenti İlham Əliyev isə 2019-cu il oktyabrın 3-də “Valday” Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında çıxışı zamanı N.Paşinyanın bu bəyanatına “Qarabağ Azərbaycandır və nida işarəsi” deməklə sərt reaksiya verdi.

Keçmiş təmas xətti və şərti sərhədlər boyunca Ermənistan tərəfindən törədilən təxribatlar da artırdı. Azərbaycan Müdafiə Nazirliyinin rəsmi məlumatlarına əsasən, sentyabrın 23-ü və sonrakı günlərdə Ermənistan silahlı qüvvələri müxtəlif istiqamətlərdə, xüsusilə Tərtər, Ağdam, Füzuli, Goranboy, Tovuz və Gədəbəy rayonları istiqamətində atəşkəsi iriçaplı pulemyotlardan və snayper tüfənglərindən istifadə etməklə intensiv şəkildə pozurdu. Müharibədən cəmi bir neçə gün əvvəl, sentyabrın 21-də Tovuz istiqamətində düşmən təxribatı nəticəsində Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu, kiçik çavuş Məmmədov Elşən Əli oğlu şəhid oldu. Bu, vəziyyətin kritik həddə çatmasının birbaşa göstəricisi idi. Bundan başqa, Ermənistan ordusu Azərbaycan mövqeləri üzərində kəşfiyyat uçuşları keçirmək üçün PUA-lardan istifadə etməyə cəhd göstərirdi. Həmin günlərdə Azərbaycanın Hava Hücumundan Müdafiə qoşunları düşmənin bir neçə taktiki PUA-sını zərərsizləşdirdi.

Beləliklə, Ermənistanın sahədəki vəziyyəti həddsiz dərəcədə gərginləşdirməsi müharibəni qaçılmaz edirdi. Azərbaycan Silahlı Qüvvələri düşmənə cavab vermək üçün tam hazır vəziyyətə gətirilmişdi.

***Mübariz FEYİZLİ***

# Azərbaycan qlobal məkanda...

**Müasir dövrdə dünya siyasətində çox ciddi geostrateji dəyişikliklər baş verir. Məhz bu dəyişikliklər və digər proseslərin fonunda beynəlxalq münasibətlər sisteminin yeni çağırışları meydana gəlir. Hazırda dünyanın müxtəlif bölgələrində müharibələr, silahlı qarşıdurmalar davam edir. Yeni geostrateji şəraitdə milli dövlətlərin beynəlxalq münasibətlər sistemində yeri və rolu məhz həyata keçirilən müstəqil siyasətin önəmindən asılıdır. Səmərəli və praqmatik müstəqil siyasət milli maraqları təmin etməklə yanaşı, ölkələrin qarşısında yeni perspektivlərin yaranmasını da şərtləndirir. Belə bir situasiyada müstəqil siyasət həyata keçirən, güclü siyasi iradəyə və maliyyə imkanlarına malik olan dövlətlər sabitliyə və inkişafa nail olur, beynəlxalq mövqelərini mütəmadi olaraq möhkəmləndirirlər. Bu kontekstdə müasir beynəlxalq münasibətlər sisteminin müstəqil aktoru və Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanın yaratdığı mənzərə unikal, mütərəqqi nümunə kimi çıxış edir.**

## Dünya üçün ölkəmizin önəmi artır

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin nəticəsində Azərbaycan böyük inkişaf yolu keçib, ölkəmizin qarşısında yeni perspektivlər açılıb. Bu hərtərəfli inkişaf bütün sahələri əhatə etməklə yanaşı, ölkəmizin iqtisadi, siyasi və hərbi qüdrətinin, bütövlükdə, isə milli gücünün artmasını təmin edib. Ərazi bütövlüyünü və suverenliyi bərpa edən Azərbaycan regionda yeni reallıqlar yaradıb. Bu və digər amillər isə ölkəmizin beynəlxalq mövqeyini əhəmiyyətli dərəcədə gücləndirib.

Hazırda regional güc mərkəzi olan Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb. Ölkəmiz xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları da əsas götürür, beynəlxalq münasibətlər sisteminə yeni və daha mütərəqqi dəyərlər təqdim edir. Bu isə həm də regional və qlobal inkişafa, sabitliyə, təhlükəsizliyə töhfə kimi xarakterizə edilir. Digər tərəfdən, xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli münasibətlərini, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir.

Eyni zamanda, ölkəmiz bir sıra mühüm beynəlxalq tədbirlərə, konfranslara ev sahibliyi edir. Təkcə sentyabr ayı ərzində TDT, İƏT və s. bağlı tədbirlər bunun göstəricisidir. Bunlarla yanaşı, ölkəmiz regionda, eləcə də beynəlxalq səviyyədə əməkdaşlıq və təhlükəsizliyə mühüm töhfələr verir. Azərbaycanın təşəbbüsü və liderliyi ilə gerçəkləşdirilən geostrateji layihələrin əhəmiyyəti və nəticələri deyilənləri təsdiq edir. Azərbaycan nəinki yerləşdiyi regionda, həm də bütövlükdə Avrasiya geosiyasi məkanında işbirliyinə, təhlükəsizliyə xidmət edən strateji əhəmiyyətli layihələrin reallaşdırılmasında aparıcı rola malikdir. Təsadüfi deyil ki, Azərbaycan Avrasiyada mühüm nəqliyyat mərkəzinə çevrilib. Bunun qanunauyğun nəticəsidir ki, dünya siyasətinin aparıcı aktorları, həmçinin mötəbər regional və beynəlxalq təşkilatlar Azərbaycanın mütərəqqi siyasətini regional təhlükəsizlik və qlobal inkişaf kontekstində olduqca yüksək qiymətləndirirlər.



## Strateji mövqe...

Hazırkı mənzərədə geosiyasi transformasiyalar, qlobal enerji bazarlarında baş verən dəyişikliklər və yeni nəqliyyat marşrutlarına artan tələbat Azərbaycanın strateji əhəmiyyətini daha da yüksəldir. Ölkənin malik olduğu təbii ehtiyatlar, inkişaf etmiş nəqliyyat infrastrukturu, etibarlı tərəfdaş imici və praqmatik xarici siyasət kursu onu regionun sabitlik və əməkdaşlıq gündəliyinin formalaşdırılmasında əsas iştirakçı kimi ön plana çıxarır. Bu baxımdan, Azərbaycanın Cənubi Qafqazda oynadığı rol yalnız milli maraqların təmin edilməsi ilə məhdudlaşmır, həm də daha geniş Avrasiya məkanında sülhün, təhlükəsizliyin və dayanıqlı inkişafın təşviqinə xidmət edir. Təsadüfi deyil ki, Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen iyulun 1-də Bakıda olarkən mətbuata bəyanatında bildirib ki, Cənubi Qafqaz Avropanı, Xəzər regionunu və Mərkəzi Asiyanı birləşdirən dünyanın ən möhtəşəm kəsişmələrindən biridir: "Regional əməkdaşlığı və sabitliyi irəli aparmaq üçün çox az sayda ölkənin sizin ölkəniz kimi yerləşməsi var. Azərbaycan öz strateji coğrafiyasını artan iqtisadi, siyasi və regional nüfuzu ilə düşünülmüş şəkildə birləşdirir. Məhz buna görə biz Avropa İttifaqı-Azərbaycan Bağlantı Tərəfdaşlığının başlanılmasını təklif edirik".

Şübhəsiz ki, Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycanla əməkdaşlıq geosiyasi və geoiqtisadi perspektivlər nöqteyi-nəzərindən əhəmiyyətli dividendlər vəd edir. Təsadüfi deyil ki, Azərbaycanın iştirakı olmadan bu gün regionda heç bir layihə gerçəkləşdirilə bilməz. Hazırda Azərbaycan sahib olduğu bütün bu üstünlüklərlə milli dövlətlərin, o cümlədən güc mərkəzlərinin uzunmüddətli perspektiv üçün əməkdaşlıq münasibətlərini inkişaf etdirməyə can atdığı tərəfdaş ölkələrdəndir.

Bir sıra xatırlatmalar, ölkəmizin həqiqətən də qlobal məkanda mühüm yer tutduğunu tədiqləyir.

## Ölkəmiz nüfuzlu beynəxalq tədbirlərə ev sahibliyi edir

Xatırladaq ki, 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, daha sonra isə 2017-2019-cu illər üçün 176 dövlətin dəstəyi ilə BMT-nin İqtisadi və Sosial Şurasına üzv olması ölkəmizin diplomatik uğurlarının mühüm göstəricilərindəndir. Bununla yanaşı, Azərbaycanın 2019-2023-cü illərdə 120-dən çox ölkəni birləşdirən Qoşulmama Hərəkatına sədrlik etməsi qlobal diplomatik nüfuzunun daha da möhkəmlənməsinə xidmət edib. Bu uğurların davamı olaraq 2024-cü ilin noyabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un, bu ilin may ayında isə Ümumdünya Şəhərsalma Forumunun Azərbaycanda keçirilməsi ölkəmizə göstərilən beynəlxalq etimadın və yüksək nüfuzun növbəti təsdiqi oldu. Regionun aparıcı dövləti kimi tanınan Azərbaycan bu gün qlobal səviyyədə də fəal və prinsipial mövqeyi ilə seçilir.

Eyni zamanda, Azərbaycan Türk Dövlətləri Təşkilatı, MDB, Avropa İttifaqı, NATO, Şanxay Əməkdaşlıq Təşkilatı, Ərəb Dövlətləri Liqası, Afrika İttifaqı və digər beynəlxalq qurumlarla səmərəli əməkdaşlıq edir, həmin təşkilatların fəaliyyətində mühüm rol oynayır. Növbəti il isə Azərbaycanda İslam Əməkdaşlıq Təşkilatının növbəti zirvə görüşü keçiriləcək. 60-a yaxın dövlətin lideri Bakıda toplaşacaq. Bu fakt ölkəmizin İslam həmrəyliyinə verdiyi töhfələrin məntiqi nəticəsidir.

Qazanılan nailiyyətlər qarşıda yeni vəzifələr müəyyənləşdirir. Bu isə Azərbaycanın uzunmüddətli milli maraqlarının təmin olunması baxımından əlavə imkanlar yaradır. Xarici siyasətin əsas prioritetləri sırasında ölkəmizin müstəqilliyinin və suverenliyinin daha da möhkəmləndirilməsi, beynəlxalq tərəfdaşlarla qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi, eləcə də regional və qlobal təhlükəsizliyə töhfə verilməsi xüsusi yer tutur. Beləliklə, milli maraqların təmin olunması məqsədilə ölkəmiz dəyişən geosiyasi şəraitə çevik uyğunlaşaraq məsuliyyətli və konstruktiv diplomatiya həyata keçirib, ikitərəfli və çoxtərəfli əməkdaşlıq mexanizmlərini daha da gücləndirib, beynəlxalq nüfuzunu və təsir imkanlarını artırıb. Bütün bunlar ölkəmizin dünya miqyasında nüfuzunu daha da yüksəldir.

*Nardar BAYRAMLI*

# Azərbaycan və Özbəkistanın yeni sazişi

## Energetika sahəsində 2026-2028-ci illər üzrə Yol Xəritəsi imzalanıb

**Energetika naziri Pərviz Şahbazov ilə Özbəkistanın energetika naziri Şerzod Xocayevin rəhbərlik etdiyi nümayəndə heyəti arasında keçirilən görüşdə strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin dinamik inkişafına toxunulub, birgə layihələrin icrası, o cümlədən, enerji əməkdaşlığının müəyyən edilmiş hədəflərə uyğun irəlilədiyi vurğulanıb.Tərəflər neft-qaz və elektroenergetika, bərpaolunan enerji, enerji səmərəliliyi və tənzimləmə, qarşılıqlı investisiyalar, eləcə də digər istiqamətlər üzrə əməkdaşlığın cari vəziyyətinin qənaətbəxş olduğunu diqqətə çatdırıblar. Ş. Xocayev Azərbaycanın Avropaya yaşıl elektrik enerjisinin ötürülməsi məqsədilə Qara dəniz, həmçinin Türkiyə istiqamətində inkişaf etdirdiyi enerji bağlantılarının Mərkəzi Asiyadan Avropaya uzanan daha geniş "yaşıl enerji" marşrutunun formalaşmasına imkan yaratdığı bildirilib. Bu istiqamətdə formalaşmaqda olan "Mərkəzi Asiya-Azərbaycan Yaşıl Enerji Dəhlizi" layihəsinin xüsusi strateji əhəmiyyət daşıdığını xatırladıb. Görüş çərçivəsində "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Özbəkistan Respublikasının Energetika Nazirliyi arasında 2026-2028-ci illər üzrə energetika sahəsində əməkdaşlığın genişləndirilməsinə dair Yol Xəritəsi" imzalanıb. Sənədə əsasən, "Mərkəzi Asiya-Azərbaycan Yaşıl Enerji Dəhlizi" layihəsinin həyata keçirilməsi, neft-qaz sektorunda geoloji-kəşfiyyat və hasilat üzrə əməkdaşlıq, neft və neft məhsullarının tədarükü, emal sahəsində birgə layihələrin inkişafı, SOCAR-ın Özbəkistanda fəaliyyətinin genişləndirilməsi əsas istiqamətlər kimi müəyyənləşdirilib.**

## Əməkdaşlıq iqtisadi-ticari dövriyyələri artıracaq

Mərkəzi Asiyanın inkişaf etmiş dövlətlərindən biri olan Özbəkistanla Azərbaycan arasında əlaqələr isə son illərdə daha intensivliyi və dinamikliyi ilə diqqəti cəlb edir. Ortaq köklər, mənəvi dəyərlər, dil, etnik yaxınlıq, zəngin tarixi və mədəni irsə söykənən ayrılmaz bağlantılar diplomatik münasibətlərin qurulduğu ötən 30 ildə hər il yüksələrək strateji müttəfiqlik səviyyəsinə qalxıb. Münasibətlərin inkişafına təsir edən ən mühüm amillərdən biri Prezidentlərin şəxsi etimad və dostluğudur, bu dərin etibar çoxşaxəli əməkdaşlığın yeni prioritetlərini müəyyənləşdirir, mühüm sazişlərin imzalanmasını təmin edır. "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilənin həyata keçirilməsi üzrə 2025-2029-cu illər üçün "Yol Xəritəsi"nin imzalanması əlaqələri tamamilə yeni mərhələyə adladıb.

İqtisadi-investisiya siyasətinə töhfə verən amillərdən biri iki dövlət arasında əməkdaşlığa dair Hökumətlərarası Komissiyanın aktiv fəaliyyəti, eləcə də Azərbaycan-Özbəkistan Regional Forumunun təşəbbüskarlığıdır. Qarşılıqlı iqtisadi, ticari, investisiya potensiallarının artırılması yönündə atılan iradəli addımlar nəticəsində 2025-ci ildə əmtəə dövriyyəsi 400 milyon dolları ötüb. 2023-cü ildə yaradılmış Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti praktiki olaraq sərmayə layihələrinin icrasını təmin edir. Bu dinamika birgə investisiya təşəbbüskarlığını daha da artırır, Azərbaycanda təxminən 120 Özbəkistan investisiyalı kommersiya təşkilatı qeydiyyatdan keçib və iqtisadiyyatın müxtəlif istiqamətlərində fəaliyyət göstərir.

İki dövlət arasında əməkdaşlığın əsas istiqamətlərindən biri şaxələndirilmiş nəqliyyat və logistika və tranzit imkanlarının genişləndirilməsidir. Beynəlxalq Nəqliyyat Dəhlizində (Orta Dəhliz) aparıcı oyunçular olan hər iki dövlət 2025-cü ildə tranzit daşımalarının həcmini 20 faizdən çox artıraraq 2 milyon tona yaxınlaşdırıb. Orta Dəhlizin əsas qovşaqlarından biri olacaq Zəngəzur dəhlizinin açılması isə Mərkəzi Asiya ölkələrinin, o cümlədən Özbəkistanın regional tranzit bağlantılarında fəal yerini möhkəmləndirəcək.



## SOCAR-ın Mərkəzi Asiyada ambisiyalı layihələri

Energetika sektorunda əməkdaşlıq və "yaşıl enerji"nin inkişafı da prioritet istiqamət olaraq qalır. SOCAR Özbəkistana Azərbaycanın neft və neft-kimya məhsullarını ixrac edir. İki ölkənin səyi ilə yaradılan "Neftegaz-texnologiya" birgə müəssisəsi uğurla fəaliyyət göstərir. 2024-cü ildə Azərbaycan, Qazaxıstan və Özbəkistan enerji sistemlərinin inteqrasiyası və bərpaolunan enerji mənbələrinin təşviqinə dair saziş və memorandumlar imzalayıb ki, bu, regionun davamlı inkişafı və enerji əməkdaşlığını gücləndirmək üçün yeni perspektivlər açır.

Azərbaycanın bərpaolunan enerji mənbələri üzrə proqnozları kifayət qədər ümidvericidir. Xəzərdə və azad edilmiş ərazilərdə böyük potensiallar var. Təkcə Xəzər dənizində külək sayəsində enerji istehsalı üçün təxminən 157 QVt güc vardır. Azərbaycan hökuməti "yaşıl" iqtisadiyyatın inkişafına tam sadiqdir və "yaşıl hidrogen"i gələcəyinin əsas hissəsi kimi görür. Ölkəmiz artıq onu qlobal təmiz enerji bazarında mühüm oyunçuya çevirə biləcək iddialı "yaşıl hidrogen" istehsalı və ixracı layihələrini həyata keçirmək üçün addımlar atır.

Özbəkistanın da geniş çöllərində günəş enerjisi üçün resurslar xeyli böyükdür. Eləcə də külək potensialı ildə hədsiz dərəcədə çoxdur. Ölkədə külək enerjisinin potensialı 520 QVt, günəş enerjisinin potensialı isə 2 trilyon 058 milyard kVt təşkil edir. Özbəkistan hökuməti 2030-cu ilə qədər ümumi elektrik enerjisi istehsalında bərpa olunan enerjinin payını 25 faizə, çatdırmağı hədəfləyir.

Beləliklə, Özbəkistan və Azərbaycanın yeni imzaladığı Yol Xəritəsi bərpaolunan enerji potensiallarının tədarükünün əlaqələndirilməsi, bölgədə "yaşıl" enerji" dəhlizinin yaradılmasını tezləşdirməklə, Xəzər-Mərkəzi Asiya bölgəsində möhkəm enerji təminatını yaradacaq.

*E.CƏFƏRLİ*

# Beynəlxalq hüququn gücü: prinsiplər və reallıqlar arasında

## BMT müasir təhlükəsizlik çağırışlarını cavablandırmağa və beynəlxalq hüququn təmininə qadir deyil

Qlobal siyasətin sürətlə dəyişdiyi, xüsusilə geosiyasi rəqabətin dərinləşdiyi və müxtəlif regionlarda münaqişələrin davam etdiyi bir dövrdə beynəlxalq hüququn rolu daha da aktuallaşır. Dövlətlərarası münasibətlərin tənzimlənməsi, suverenliyin və ərazi bütövlüyünün qorunması, münaqişələrin dinc yollarla həlli və beynəlxalq sabitliyin təmin olunması məhz beynəlxalq hüququn fundamental prinsipləri ilə bağlıdır. Beynəlxalq hüquqdan danışarkən ilk növbədə yada BMT düşür - o baxımdan ki, BMT Nizamnaməsi də beynəlxalq sülh və təhlükəsizliyin qorunmasını təşkilatın əsas məqsədlərindən biri kimi müəyyənləşdirir. BMT Nizamnaməsinin 24-cü maddəsinə əsasən, bu sahədə əsas məsuliyyət təşkilatın əsas ali orqanının - Təhlükəsizlik Şurasının üzərinə düşür, 25-ci maddə isə üzv dövlətlərin Şuranın qərarlarını qəbul edib yerinə yetirməsini nəzərdə tutur. Lakin müasir beynəlxalq münasibətlər təcrübəsi hüquqi prinsiplərlə onların tətbiqi arasında müəyyən ziddiyyətlərin mövcudluğunu da göstərir. Müxtəlif regionlarda oxşar xarakterli hadisələrə fərqli yanaşmaların nümayiş etdirilməsi beynəlxalq hüququn universallığı və obyektivliyi ilə bağlı ortaya bir çox suallar çıxarır.

### "BMT Təhlükəsizlik Şurası, - sadəcə olaraq buna qadir olmadı, daha doğrusu, çox güman ki, bunu etmək istəmirdi"

Bu baxımdan Azərbaycan-Ermənistan münaqişəsi xüsusi nümunədir. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası 822, 853, 874 və 884 saylı dörd qətnamə qəbul edərək Azərbaycanın əraziləri ilə bağlı vəziyyətə münasibət bildirib və işğal olunmuş ərazilərdən qüvvələrin çıxarılmasını tələb edib. Sonuncu qətnamə də əvvəlki qətnamələrin tələblərinin yerinə yetirilməsinə çağırışla yanaşı, Zəngilan və Horadizdən, eləcə də digər yeni işğal olunmuş ərazilərdən qüvvələrin çıxarılmasını tələb edirdi.

Bununla belə, həmin qətnamələrin icrası uzun illər təmin olunmadı və münaqişə təxminən üç onillik ərzində davam etdi. Beləliklə, Azərbaycanın təcrübəsi beynəlxalq hüquq normalarının yalnız qəbul edilməsinin deyil, onların icrasını təmin edən siyasi və institusional mexanizmlərin də nə qədər vacib olduğunu göstərdi. Məhz bu məqam beynəlxalq hüququn gələcəyi ilə bağlı əsas suallardan birini ortaya qoyur: qəbul edilən hüquqi qərarlar bütün dövlətlər üçün eyni prinsipiallıqla və ardıcıllıqla tətbiq olunmadıqda qlobal hüquq sisteminin effektivliyini necə təmin etmək mümkündür?

Prezident İlham Əliyev

**"Sadəcə olaraq, beynəlxalq hüquq iflic vəziyyətinə düşmüşdü, lakin bu, öz-özünə baş verməmişdi. Onu həyata keçirməli olan qurum, - BMT Təhlükəsizlik Şurası, - sadəcə olaraq buna qadir olmadı, daha doğrusu, çox güman ki, bunu etmək istəmirdi. İkili standartlar, bəzi ölkələrə verilən üstünlüklər prinsiplərdən üstün olduqda, münaqişələr də məhz belə yaranır. Buna görə də münaqişələrin qarşısını almaq və ya onlar artıq baş veribsə, onları sülh yolu ilə həll etmək üçün hansı mexanizm mövcuddur? Yalnız beynəlxalq hüquq. Buna görə də Birləşmiş Millətlər Təşkilatı çərçivəsində elə bir mexanizm hazırlamaq lazımdır ki, bu mexanizm qətnamələrin həyata keçirilməsinə gətirib çıxarsın. Əks halda, bu, seçici yanaşmadır. Böyük dövlətlər, BMT Təhlükəsizlik Şurasının daimi üzvləri üçün bu, maraqlı olduqda, qətnamələri bir gün ərzində həyata keçirirlər. Bu, onlar üçün maraqlı olmadıqda və ya bizim vəziyyətimizdə olduğu kimi, bunu özləri üçün əlverişsiz hesab etdikdə isə həmin qətnamələr 30 il ərzində kağız üzərində qaldı. Sonra biz gəlib bizə məxsus olanı geri aldıq"**

sentyabrın 17-də Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi və üzv dövlətlərin təhlükəsizlik şuralarının rəhbərlərini qəbul edərkən bildirib ki, beynəlxalq mexanizmlər işləsəydi və BMT sistemi normal fəaliyyət göstərsəydi, ərazilərimizi güc yolu ilə geri almağa məcbur qalmazdıq, bu qədər itki olmazdı: "Sadəcə olaraq, beynəlxalq hüquq iflic vəziyyətinə düşmüşdü, lakin bu, öz-özünə baş verməmişdi. Onu həyata keçirməli olan qurum, - BMT Təhlükəsizlik Şurası, - sadəcə olaraq buna qadir olmadı, daha doğrusu, çox güman ki, bunu etmək istəmirdi. İkili standartlar, bəzi ölkələrə verilən üstünlüklər prinsiplərdən üstün olduqda, münaqişələr də məhz belə yaranır. Buna görə də münaqişələrin qarşısını almaq və ya onlar artıq baş veribsə, onları sülh yolu ilə həll etmək üçün hansı mexanizm mövcuddur? Yalnız beynəlxalq hüquq. Buna görə də Birləşmiş Millətlər Təşkilatı çərçivəsində elə bir mexanizm hazırlamaq lazımdır ki, bu mexanizm qətnamələrin həyata keçirilməsinə gətirib çıxarsın. Əks halda, bu, seçici yanaşmadır. Böyük dövlətlər, BMT Təhlükəsizlik Şurasının daimi üzvləri üçün bu, maraqlı olduqda, qətnamələri bir gün ərzində həyata keçirirlər. Bu, onlar üçün maraqlı olmadıqda və ya bizim vəziyyətimizdə olduğu kimi, bunu özləri üçün əlverişsiz hesab etdikdə isə həmin qətnamələr 30 il ərzində kağız üzərində qaldı. Sonra biz gəlib bizə məxsus olanı geri aldıq".

### 81 il öncə müəyyənləşən prinsiplər...

Birləşmiş Millətlər Təşkilatı 1945-ci il oktyabrın 24-də dünyanın ən güclü 50 dövləti tərəfindən yaradılıb. Hazırda dünyanın 193 ölkəsi BMT-nin mandat sisteminə daxildir. BMT beynəlxalq sülhün və təhlükəsizliyin qorunub saxlanılması, millətlər arasında dostluq əlaqələrinin inkişafı və sosial tərəqqiyə yardım, insan həyatının və hüquqlarının müdafiəsi səviyyəsinin yüksəldilməsi məqsədilə yaradılmış ən böyük qurumdur. Təşkilatın Nizamnaməsi 1945-ci il 26 iyun tarixində imzalanıb və 1945-ci il 24 oktyabrda qüvvəyə minib. Qurumun əsas orqanları BMT Baş Məclisi, BMT Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir. Respublikamız təşkilata 1992-ci ildə qəbul olunub.

Qurumun yaranmasından ötən 81 ildə isə yeni reallıqlar, yeni siyasi situasiyalar yaranıb. Qurumun əsas qərar qəbuletmə və veto hüququ BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündə - ABŞ, Rusiya, Fransa, Böyük Britaniya və Çindədir. Günümüzün reallığı müstəvisindən yanaşdıqda isə, sirr deyil ki, bu 5 ölkə öz aralarında həm siyasi, həm də iqtisadi rəqabətə malikdirlər. Başqa sözlə desək, bu rəqabət məsələlərə obyektiv yanaşmanı, qiymətləndirməni bir çox hallarda mümkünsüz edir. Eyni zamanda da, 81 il öncə imzalanan nizamnamə də yeni dünyanın tələblərinə əsla cavab vermir. Qütbləşmənin gücləndiyi bir zamanda təşkilata yeni ruh, yeni siyasi strateji xətt və yeni siyasi balans lazımdır.

Məhz bu səbəbdən də bir sıra hallarda "dünya hökuməti" adlandırılan BMT qlobal miqyasda baş verənlərə operativ yanaşma sərgiləmir. Yaranan yeni reallıqlar və müasir çağırışlar fonunda BMT-də islahatların aparılması tarixi zərurətə çevrilib. BMT-də elə bir mexanizm yaradılmalıdır ki, onun qlobal güc və maliyyə mərkəzlərindən asılılığı aradan qalxsın. Mövcud Nizamnamə və TŞ-nin hazırkı strukturu ilə BMT "dünya hökuməti" funksiyasını həyata keçirmək iqtidarında deyil, daha çox "siyasi alət" qismində çıxış edir. Buradan da dünya nizamının tənzimlənməsində ikili standartlar ortaya çıxır, bütün qlobal proseslər BMT-nin iradəsi ilə deyil, əsasən güc mərkəzlərinin diktəsi ilə yönləndirilir.



### Təhlükəsizlik Şurasının dəyişməsi - dəyişən dünyanın yeni reallığı

BMT Təhlükəsizlik Şurasında islahatların aparılması məsələsi artıq uzun müddətdir beynəlxalq gündəmin əsas mövzularından biridir. Dünyanın siyasi, iqtisadi və demoqrafik xəritəsi ciddi şəkildə dəyişdiyi halda, İkinci Dünya müharibəsindən sonra formalaşmış qlobal idarəçilik mexanizmlərinin əvvəlki strukturla fəaliyyət göstərməsi getdikcə daha çox müzakirə olunur. BMT Baş katibi Antonio Quterreş də bu reallığı açıq şəkildə ifadə edən əsas beynəlxalq rəsmilərdən biridir. 2023-cü ilin mayında Xirosimada keçirilən G7 sammiti çərçivəsində jurnalistlərə açıqlamasında Quterreş beynəlxalq institutların artıq dəyişən reallıqları tam əks etdirmədiyini bildirmiş və Təhlükəsizlik Şurasının islahatlara ehtiyacı olduğunu vurğulamışdı. BMT-nin özünün yaydığı məlumatda da Baş katibin Təhlükəsizlik Şurası və Bretton-Vuds institutlarının islahatını zəruri hesab etdiyi qeyd olunub.

Məsələ yalnız Şuranın tərkibinin dəyişdirilməsi ilə məhdudlaşmır. Burada əsas suallardan biri dünyanın müxtəlif regionlarının qlobal qərar qəbuletmə prosesində nə dərəcədə təmsil olunmasıdır. Bu gün Asiya, Afrika və Latın Amerikası, hətta Ərəb və Türk dünyası ölkələrinin iqtisadi və siyasi çəkisi əhəmiyyətli dərəcədə artıb. Bununla belə, Təhlükəsizlik Şurasının daimi üzvləri sırasında Afrika və Latın Amerikasından, o cümlədən İslam və Türk dünyalarından heç bir dövlətin təmsil olunmaması qurumun müasir geosiyasi reallıqları nə dərəcədə əks etdirməsi barədə müzakirələri gücləndirir.

Digər mühüm məsələ isə veto mexanizminin yaratdığı məhdudiyyətlərdir. Daimi üzvlər arasında fikir ayrılıqları yarandıqda Şuranın konkret böhranlar üzrə qərar qəbul etmək imkanlarının məhdudlaşması beynəlxalq ictimaiyyət tərəfindən dəfələrlə müzakirə edilib. Bu səbəbdən islahat tərəfdarları daha təmsilçi, effektiv və qərarların icrası baxımından daha işlək mexanizmin formalaşdırılmasını vacib hesab edirlər.

Əslində, beynəlxalq hüququn nüfuzunun qorunması ilə Təhlükəsizlik Şurasının effektivliyi arasında birbaşa əlaqə var. Qətnamələrin qəbul edilməsi qədər onların icrasının təmin olunması da mühümdür. Buna görə də Şuranın yenilənməsi yalnız təşkilati dəyişiklik deyil, beynəlxalq hüququn universal və ardıcıl tətbiqinə olan inamın möhkəmləndirilməsi baxımından da əhəmiyyət daşıyır. Bu gün əsas məsələ BMT-ni dəyişməkdən daha çox, onu dəyişən dünyanın reallıqlarına uyğunlaşdırmaqdır.

### Azərbaycan və Türkiyənin təklifləri...

Qeyd edilməlidir ki, BMT Təhlükəsizlik Şurasında islahatların aparılması təklifi ilə ilk olaraq Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edib. 2013-cü ildə Birləşmiş Millətlər Təşkilatının Nyu-Yorkda keçirilən 74-cü Baş Assambleyasında çıxışı zamanı "dünya beşdən böyükdür" deyən Ərdoğan bu yöndə təşəbbüslərini müxtəlif platformalarda da səsləndirmişdi. Türkiyə Prezidentinin fikrincə, BMT Təhlükəsizlik Şurasının inklüziv islahatı təcili ehtiyacdır. "Beş ölkə arasında bəşəriyyətin taleyini tələyə salan hazırkı nizam davamlı deyil", - deyə Rəcəb Tayyib Ərdoğan bəyan edib.

Azərbaycan da hər zaman BMT strukturunda islahatların aparılmasına israrlı çağırışlar səsləndirir. Bununla bağlı fikirlərini Prezident İlham Əliyev həm yerli auditoriyalarda, həm də beynəlxalq tədbirlərdəki çıxışlarında birmənalı şəkildə ifadə edir. Sentyabrın 1-də Qırğız Respublikasının paytaxtı Bişkek şəhərində "ŞƏT plyus" formatında görüşdə çıxış edən Prezident İlham Əliyev bildirib ki, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş dörd qətnaməsi 30 ildən sonra, üç il əvvəl icra edildi: "Lakin təəssüf ki, BMT bu qətnamələrin icrasında heç bir rol oynamayıb. Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü tamamilə özü bərpa edib. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin qısa müddətdə icrası üçün müvafiq mexanizmlərin hazırlanması tələb olunur. Bu həyata keçirilərsə, BMT-nin nüfuzunun və təşkilatın münaqişələrin nizamlanmasındakı rolunun artmasına xidmət edər. Son vaxtlara qədər dörd il ərzində Qoşulmama Hərəkatına rəhbərlik etmiş Azərbaycan bundan sonra da beynəlxalq məsələlərdə çoxtərəflilik prinsiplərinin möhkəmləndirilməsinə öz töhfəsini verəcək".

Bəli, beynədxalq hüququn təmini ən mütləq şərtdir - Prezident İlham Əliyevin bildirdiyi kimi, "biz hamımız beynəlxalq hüququn üstünlüyünü qəbul edirik və bu gün dünyada beynəlxalq hüquqdan başqa bir mexanizm yoxdur. Ancaq o da həqiqətdir ki, beynəlxalq hüquq bir çox hallarda pozulur və "kim güclüdür o da haqlıdır" prinsipi üstünlük təşkil edir". Azərbaycan hər zaman atdığı addımdarda, qəbul etdiyi qərarlarda beynəlxalq hüquqa hörmət və sədaqət nümayiş etdirib. Günümüzün reallığında isə Azərbaycan kimi hüququ ali prinsip kimi qəbul edən dövlətlərin sayı təəssüf ki, azalır. Bunun üçün də BMT mütləq şəkildə islahatlara getməli, beynəlxalq hüququn icrası və təmini üçün daxili resurslarını təkmilləşdirməli, mexanizmlər formalaşdırmalıdır...

*Pərviz SADAYOĞLU*

# Mühüm müzakirə: "Azərbaycanın dövlətçilik tarixində Qafqaz Albaniyası irsi"

Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzinin təşkilatçılığı ilə "Azərbaycanın dövlətçilik tarixində Qafqaz Albaniyası irsi" mövzusunda tədbir keçirilib.

Tədbirdə Azərbaycanın qədim dövlətçilik tarixində Qafqaz Albaniyasının yeri və rolu, onun siyasi, mədəni və dini irsi ilə bağlı məsələlər müzakirə olunub.

BMTMM-nin İdarə Heyətinin sədri Fərid Şəfiyev Qafqaz Albaniyası irsinin qorunmasının siyasi məqamlarının da xüsusi əhəmiyyət daşıdığını vurğulayıb.

O qeyd edib ki, ölkəmizin ərazisində tarix boyu müxtəlif dövlətlər mövcud olub və onların hər biri Azərbaycan xalqına zəngin tarixi və mədəni irs qoyub. Bu irsi geniş şəkildə araşdıraraq ictimaiyyətə təqdim etməsək, müəyyən boşluqlar yaranır və həmin boşluqlardan öz məqsədləri üçün istifadə etməyə çalışan qüvvələr meydana çıxır.

"Qafqaz Albaniyası tarixinin araşdırılması istiqamətində elmi fəaliyyət daha da genişləndirilməlidir. Bu baxımdan erməni və gürcü dillərinin öyrənilməsi, eləcə də Qafqaz tarixinin ilkin mənbələr əsasında araşdırılması xüsusi əhəmiyyət daşıyır.

Bəzi erməni radikalları Qarabağda mövcud olan kilsələrin Azərbaycan tərəfindən "albanlaşdırıldığını" iddia edirlər. Lakin bu yanaşma reallığı əks etdirmir. Azərbaycanın ərazisində müxtəlif xalqlara və dini icmalara məxsus tarixi ibadət məkanları mövcuddur və ölkəmiz bu abidələrin qorunmasına diqqət yetirir", - deyə İdarə heyətinin sədri vurğulayıb.

AMEA-nın Tarix və Etnologiya İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru Ramil Ağayev bildirib ki, Qafqaz Albaniyasında katolikosluğun formalaşması mühüm məsələlərdən biridir. Xristianlığın Albaniyada yayılması və burada müstəqil kilsə



institutlarının fəaliyyəti ilə bağlı məsələlər Azərbaycan tarixşünaslığında, o cümlədən görkəmli tarixçi Ziya Bünyadovun əsərlərində araşdırılıb.

"Qafqaz Albaniyasında xristianlığın yayılması erməni kilsəsinin tarixindən əvvəlki dövrlərə gedib çıxır. Həmin dövrdə Albaniyada fəaliyyət göstərən katolikosluq və kilsə institutlarının müstəqilliyi məsələsi də tarixi mənbələr əsasında araşdırılıb. Təəssüf ki, bəzi hallarda bu irsin başqa xalqların adına çıxarılması cəhdləri müşahidə olunur. Lakin belə məsələlərə yanaşarkən ilkin mənbələrdən, epiqrafik abidələrdən və elmi araşdırmalardan çıxış etmək lazımdır", - deyə tarixçi bildirib.

Qafqaz Tarixi Mərkəzinin direktoru, hərbi ekspert Rizvan Hüseynov qeyd edib ki, ümumiyyətlə, Qarabağda prinsipial əhəmiyyət daşıyan və yalnız Qarabağ, yaxud Qafqaz xristianlığı üçün deyil, bütövlükdə xristian dünyası üçün əhəmiyyətli olan üç kilsə var. Bunlardan biri Gəncəsər, digəri Xudavəng, üçüncüsü isə Amaras, yəni Ağoğlan kilsəsidir.

"Alban irsi müxtəlif tarixi dövrlərdə dağıntılara məruz qalıb. Diplomatik korpusun nümayəndələri dəfələrlə Qarabağa səfər ediblər. Burada müəyyən ideoloji məsələlər də var ki, erməni tərəfi onları konservasiya edərək saxlayır ki, gələcəkdə vəziyyət dəyişərsə, həmin məsələlərdən yenidən istifadə edə bilsin", - deyə ekspert vurğulayıb.

BMTMM-nin İdarə Heyətinin sədrinin müavini Fərhad Məmmədov hazırda radikal ermənilərin dini irsdən silah kimi istifadə etməyə çalışdıqlarına diqqət çəkib. Onun sözlərinə görə, Ermənistan kilsəsinin son zamanlar qəbul etdiyi qərarlar göstərir ki, Ermənistan cəmiyyətində ən böyük revanşizm elə budur.

"Qafqaz Albaniyası irsinin tarixi daha da dərin araşdırılmalıdır. Ancaq bu yolla elmi və siyasi səviyyədə təsiri görüləcək", - deyə Fərhad Məmmədov bildirib.

Tədbir müzakirələrlə davam edib.

# YAP Şuşa rayon təşkilatının VII konfransı keçirilib








Sentyabrın 19-da Yeni Azərbaycan Partiyası (YAP) Şuşa rayon təşkilatının VII konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət edilib, büstün önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Şuşa rayon təşkilatının sədri Təvəkkül Əliyev hesabat məruzəsi ilə çıxış edib. O, partiyanın yaranma tarixindən, keçdiyi şərəfli yoldan, ötən dövr ərzində rayon təşkilatının fəaliyyətindən danışıb. Ulu Öndər Heydər Əliyevin memarı olduğu müstəqil Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf etdiyi qeyd olunub.

Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərov bildirib ki, Ümummilli Lider Heydər Əliyevin siyasi kursu bu gün Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilir. Məhz bu siyasətin nəticəsi olaraq, Azərbaycan tarixi Zəfər qazanıb, dövlət suverenliyini tam bərpa edib və işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Babaoğlu partiya sıralarının gündən-günə genişlənməsinin, sosial bazasının daha da möhkəmlənməsinin Heydər Əliyev ideyalarına etimadın və Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin siyasətinə dəstəyin bariz nümunəsi olduğunu deyib. O qeyd edib ki, bu gün istər ölkə daxilində, istərsə də regionda lider partiya olan Yeni Azərbaycan Partiyası beynəlxalq əlaqələrdə də böyük uğurlara imza atıb.

Daha sonra Birinci Qarabağ Müharibəsi qazisi Elxan Ələkbərli, Şuşa Humanitar Kollecinin direktoru Mehriban Qasımova, 41 saylı ərazi partiya təşkilatının sədri, Şuşa şəhər 1 nömrəli tam orta məktəbin direktoru Səbinə Gözəlova və Şuşa rayon Statistika İdarəsinin rəisi Anar Xəlilov çıxış edərək Yeni Azərbaycan Partiyasının bundan sonra da ölkəmizdə gedən bütün proseslərin mərkəzində olacağına əminliklərini ifadə ediblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Rəşad Abbaszadə isə rayon təşkilatının fəaliyyəti, ərazi partiya təşkilatları ilə işin səmərəli təşkili və partiya üzvlərinin ictimai fəallığının artırılması istiqamətində görülən işlərdən danışıb.

Konfransda YAP Şuşa rayon təşkilatının hesabat dövründəki fəaliyyəti müzakirə olunaraq qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# 3,7 milyard avrodan çox...

## Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycandakı investisiyalarını artırır

Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) Azərbaycandakı cari kredit portfelini 888 milyon avroya çatdırıb. Portfelin 41 faizi özəl sektorun payına düşür.

Hazırda ölkəmizdə 35 layihənin maliyyələşdirilməsində iştirak edən bank vəsaitlərinin əsas hissəsini (89 faiz) - 794 milyon avrosunu dayanıqlı infrastrukturun inkişafına, 7 faizini və ya 64 milyon avrosunu maliyyə institutlarına, 3 faizini və ya 30 milyon avrosunu isə korporativ sektora yönəldilib.

Ümumilikdə, 30 ildən artıqdır ki, ölkəmizdə fəaliyyət göstərən Avropa Bankı bu müddət ərzində 202 layihənin maliyyələşdirilməsinə 3 milyard 728 milyard avro investisiya yatırıb.

Bankın Azərbaycandakı əsas maliyyələşmə prioritetləri qeyri-neft sektorunun inkişafı, mühüm infrastrukturların, o cümlədən nəqliyyat və kommunikasiya sahələrində regional layihələrin dəstəklənməsi, yerli maliyyə institutlarının gücləndirilməsi və "yaşıl iqtisadiyyat"a keçidin təmin olunmasıdır.

### Külək və Günəş stansiyalarının inşasında yaxın tərəfdaş

AYİB Cənub Qaz Dəhlizi kimi nəhəng enerji layihəsinin maliyyələşdirilməsində Azərbaycanın ən yaxın tərəfdaşı olub. Bank ənənəvi enerji sektoru ilə yanaşı, bərpaolunan enerji layihələrində də ölkəmizlə sıx əməkdaşlıq edir. İndiyə qədər 230 MVt gücündə "Qaradağ" Günəş Elektrik Stansiyası, 240 MVt gücündə "Xızı-Abşeron" Külək Elektrik Stansiyası, Neftçaladakı "Bankə" Günəş Elektrik Stansiyası və "Biləsuvar" Günəş Elektrik Stansiyasının tikintisində də AYİB birbaşa əsas maliyyə təchizatçısı olub. Avropa Bankı, həmçinin Qobustan Günəş Elektrik Stansiyasının inşasında maliyyə dəstəyini göstərib.

Energetika Nazirliyi ilə AYİB arasında imzalanmış elektroenergetika sektorunun inkişafı ilə bağlı texniki dəstəyə dair Anlaşma Memorandumu çərçivəsində digər layihələr də həyata keçirilib. "Azərbaycanda kiçik miqyaslı bərpa olunan enerji layihələri üçün lazımi normativ çərçivənin tətbiqinin dəstəklənməsi" layihəsi üzrə digər alternativ enerji mənbələrinin tədarükü və digər bərpaolunan layihələrin də maliyyələşməsində beynəlxalq donor kimi fəaliyyətini davam etdirir.

### "Xəzər-Qara dəniz-Avropa" "yaşıl dəhlizi"nin maliyyələşdirilməsi

Ümumilikdə, AYİB 2027-ci ilədək 8 külək və günəş elektrik stansiyasının istismara hazırlanmasına kreditlər ayırmaqla bağlı Bakı ilə razılaşıb. Həmçinin, Avropa Bankı "Xəzər-Qara dəniz-Avropa" və "Azərbaycan-Mərkəzi Asiya-Avropa" "yaşıl enerji" dəhlizlərinin yaradılmasında da əsas maliyyə tərəfdaşlarından biri kimi çıxış edir. Bir müddət əvvəl ölkəmizdə olan AYİB-in Türkiyə və Qafqaz üzrə icraçı direktoru Elisabetta Falçetti Azərbaycanın "yaşıl enerji" dəhlizlərinin yaradılması istiqamətində atdığı addımları yüksək qiymətləndirib, bankın aşağı karbonlu enerjiyə keçid, "yaşıl texnologiyalar" sahəsində layihələrin icrası və gələcək əməkdaşlıqda "yaşıl enerji"yə xüsusi önəm verəcəyini xatırladıb.

Bank Azərbaycan və Özbəkistan hökumətləri tərəfindən təsis edilmiş "Azərbaycan-Özbəkistan İnvestisiya Fondu"nun maliyyə portfelinin artırılması üçün 158 milyon dollar ayırmağı da nəzərdən keçirir.

### Gəncə üçün 120 milyon avroluq kredit xətti




Avropa Bankı hazırda bərk məişət tullantılarının idarə edilməsi, küçə işıqlandırmasının modernləşdirilməsi və su infrastrukturunun inkişafı sahəsində kapital qoyuluşlarına töhfə vermək niyyətindədir. Bu kursa əsasən, Gəncədə su təchizatı və kanalizasiya sistemlərinin modernləşdirilməsi üçün nəzərdə tutulan 120 milyon avro həcmində ikinci kreditin ayrılmasını da nəzərdən keçirir. E. Falçetti bildirib ki, "Yaşıl şəhərlər" proqramı çərçivəsində Gəncədə Fəaliyyət Planının hazırlanmasına qərar verilib. Azərbaycanın ikinci böyük şəhərində ekoloji cəhətdən daha sağlam, dayanıqlı və daha rahat yaşayış mühitinin formalaşdırılmasına yönəlmiş uzunmüddətli strategiyanın hazırlanması nəzərdə tutulur. Digər istiqamətlər üzrə su təchizatı layihələrinin maliyyələşməsinə, ümumilikdə, investisiya proqramı çərçivəsində təxminən 410 milyon avro məbləğində kapital ayrılması gözlənilir.

AYİB Gəncədən kənarda da dayanıqlı infrastruktur layihələrini maliyyələşdirmək niyyətindədir ki, bura Şəkidə su təchizatı, çirkab və yağış suları infrastrukturunun inşası və bərpası daxildir. Şəki üçün 91 milyon avro məbləğində kredit sazişinin imzalanması planlaşdırılır. Eləcə də, Bakıda və Abşeron yarımadasının ərazisində 3 milyondan çox sakinə xidmət göstərən su təchizatı sisteminin təkmilləşdirilməsi layihəsinin texniki-iqtisadi əsaslandırılmasının hazırlanmasına başlanılıb. Paralel olaraq bankın paytaxtda uzun müddət çirklənməyə məruz qalmış ərazilərin bərpasında iştirakı imkanları araşdırılır. Məqsəd ekoloji cəhətdən zərər çəkmiş ərazilərin yerli icmalar və investisiyalar üçün daha sağlam və cəlbedici məkanlara çevrilməsinə şərait yaratmaqdır.

### Kiçik və orta biznes üçün 75 milyon avro dəstək

AYİB münaqişələrdən zərər çəkmiş ölkələrin dəstəklənməsinə də irihəcmli vəsaitlər ayırmağı planlaşdırır ki, həmin siyahıda Azərbaycan da yer alır. Belə ki, münaqişənin iqtisadi və sosial fəsadlarına məruz qalmış ölkələrdən biri kimi Azərbaycanın vaxtilə münaqişə bölgəsi olan rayonlarının ailə təsərrüfatlarında iqtisadi fəallığın dəstəkləməsi, əsas xidmətlərin davamlılığının təmin edilməsi nəzərdə tutulur.

Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanda kiçik və orta biznesin maliyyələşdirilməsində də fəal rol oynayır. Cari ilin iyun ayında bu sahəyə daha çox dəsrək vermək məqsədilə "AccessBank"a 75 milyon avro həcminə portfel vəsaitinin verilməsi razılaşdırılıb. Həmin vəsaitin birbaşa kiçik və orta sahibkarlığın maliyyə ehtiyaclarının qarşılanmasına yönəldilməsi nəzərdə tutulur. Layihə çərçivəsində adıçəkilən bankın kapital imkanlarının genişlənəcəyi və yeni kreditlərin verilməsi üçün əlavə resurs yaranacağı gözlənilir. Maliyyələşdirmə əsasən gənclərə və qadınlara məxsus bizneslərə, eləcə də regionlarda fəaliyyət göstərən sahibkarlara yönəldiləcək. Bu isə inklüziv regional iqtisadi inkişafı dəstəkləməlidir.

*E.CƏFƏRLİ*

# 2027-ci ildə büdcə gəlirlərinin əsas istiqamətləri

## Vergi, gömrük və digər yığımların həcmi artırılacaq

Məlum olduğu kimi Maliyyə Nazirliyi (MN) 2027-cı ilin dövlət büdcəsi layihəsini Nazirlər Kabinetinə təqdim edib. Eyni zamanda, "2027-ci ilin dövlət və icmal büdcələrinin ilkin göstəricilərinə dair Açıqlama" sənədi ictimaiyyətə açıqlanıb.

Büdcə sənədlərində əsas strateji baxış ölkə iqtisadiyyatının müxtəlif sahələri üzrə qəbul edilmiş strategiya və dövlət proqramlarının icrası üçün maliyyə təminatının yaradılmasıdır. Bu strateji yanaşmaya əsasən, ortamüddətli büdcə siyasətinin əsas məqsədlərindən biri kimi gəlirlər üzrə siyasətin daha da təkmilləşdirilməsi və optimallaşdırılmasıdır.

Həmin kurs üzrə 2027-ci ildə gəlirlər sahəsində həyata keçiriləcək əsas istiqamətlər ölkənin iqtisadi inkişafını sürətləndirmək, rəqabət qabiliyyətini gücləndirmək, investisiya mühitini daha cəlbedici etməkdir. Bu tədbirlər çərçivəsində vergi borclarının idarə olunması sahəsində daha çevik yanaşmaların tətbiqi və könüllü ödəniş intizamının gücləndirilməsi, sahibkarlığın dəstəklənməsi və strateji sahələrə investisiyaların təşviqi və vergi və gömrük inzibatçılığı mexanizmlərinin təkmilləşdirilməsi kimi addımlar planlaşdırılır.

Əsas məqsdələrdən biri biznes mühitinin fəaliyyətinin, investisiya qoyuluşunun təşviqi və vergitutma bazasının genişləndirilməsidir.

### Vergi Xidmətinin yığım proqnozu 18,4 milyard manatdan çoxdur

2027-ci ildə Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə daxilolmaları 18 milyard 430 milyon manat həcmində proqnozlaşdırılır. Bu, 2026-cı ilin proqnozu ilə müqayisədə 6,1 faiz çoxdur. Vergi orqanı tərəfindən toplanılacaq fiskal yığımlarda hüquqi şəxslərin mənfəət vergisi ən irihəcmli gəlir mənbəyi kimi müəyyən olunub. Həmin verginin həcmi 6,1 faiz artırılaraq 6 milyard 580 milyon manatdan 6 milyard 983 milyard manata yüksəldilib. Əlavə dəyər vergisinin proqnozu 4,9 faiz artımla gözlənilir ki, bu da cari ildəki 4 milyard 446 milyon manata qarşı 4 milyard 686 milyon manat deməkdir.

Gələn il fiziki şəxslərin gəlir vergisi 29 faiz artırılaraq 2,3 milyard manatdan 3 milyard manata çatdırılıb Sadələşdirilmiş vergi ödəyicilərinin öhdəliyi isə 8,9 faiz yüksəldilib ki, bu da hazırkı 429 milyon manata qarşı 467 milyon manatdır. Digər vergi proqnozu üzrə dövlət rüsumları 16 faiz artırılaraq 420 milyon manat (2026-cı ildə 262 milyon manat) səviyyəsində müəyyən edilib. Aksizlər üzrə vergilərin məbləği 5 faiz artımla 1 milyard 668 milyon manat proqnozlaşdırılır. Maraqlıdır ki, gələn il yol vergisinin proqnozu 8,2 faiz aşağı salınıb, cari il üzrə 334,4 milyon manat öhdəlik növbəti ildə 307 milyon manat fərz edilir.

2027-cı ildən etibarən muzdlu işlə bağlı gəlirlər və sosial sığorta ödənişləri üzrə mexanizmin tətbiqində də dəyişikliklər gözlənilir. Belə ki, 2027-ci il yanavrın 1-dən fiziki şəxslərin aylıq gəlirinin 2500 manatadək olan hissəsindən tutulan gəlir vergisinin həddi 5 faizə çatdırılacaq. Xatırladaq ki, bu rəqəm 2026-cı ildə 3 faiz intervalında götürülüb. Bu o deməkdir ki, növbəti ildə əməkhaqqından tutulan verginin faizi daha 2 dərəcə artacaq.




### Vergi ödəyicilərinə münasibət yumşaldılacaq

Gələn il vergi siyasətində əsas prioritetləri kimi biznes mühitinin daha əlverişli və proqnozlaşdırıla bilən əsaslarla formalaşdırılması, real sektorun inkişafını dəstəkləyən mexanizmlərin gücləndirilməsi və investisiya fəallığının təşviqi müəyyən edilib. Bu çərçivədə müddəti başa çatan vergi güzəşt və azadolmalarının müddətinin uzadılması, qeyri-neft sektorunun inkişafı məqsədilə nəticəyönümlü yeni güzəştlərin müəyyən edilməsi nəzərdə tutulur. Eləcə də vergi gəlirlərinin dayanıqlılığının təmin edilməsi məqsədilə vergitutma obyektlərinin daha dəqiq müəyyən edilməsi nəzərdə tutulur ki, bu çərçivədə uçot, hesabat və ödəmə intizamına nəzarət gücləndiriləcək. Vergi borclarının idarə olunması sahəsində əsas istiqamətlərdən biri isə ödəyicilər üçün daha çevik yanaşmaların tətbiqidir. Bu kursa əsasən, vergi inzibatçılığının gücləndirilməsi ilə yanaşı, vergi ödəyiciləorinə münasibətin bir qədər yumşaldılması nəzərdə tutulur. Belə ki, vergi borcları üzrə möhlət verilməsi prosedurlarının təkmilləşdirilməsi, ödəmə qabiliyyətində çətinlik yaşayan, lakin iqtisadi fəaliyyətini davam etdirən vergi ödəyiciləri üçün daha əlverişli mexanizmlər müəyyən ediləcək. Bundan əlavə, müəyyən şərtlər daxilində maliyyə sanksiyaları və penya üzrə güzəştlərin tətbiqi də nəzərdən keçiriləcək.

### Gömrük yığımları 6,8 milyard manatı ötəcək

2027-ci ildə digər fiskal mənbə olan gömrük daxilolmalarının proqnozlaşdırılan həcmi 6 milyard 865 milyon manat nəzərdə tutulub. Həmin vəsaitin 68,5 faizi və ya 4 milyard 700 milyon manatın əlavə dəyər vergisinin payına düşəcək. Bu, 2026-cı ilin proqnozu ilə müqayisədə 1,05 faiz azdır. Digər gömrük yığımlarından aksiz vergisi 2,6 faiz artımla 240 milyon manat, yol vergisi 1,7 faiz artımla 61 milyon manat, dövlət rüsumu 2,5 faiz artımla 1 milyard 864 milyon manat proqnozlaşdırılır.

Büdcə gəlirlərinin təmin olunmasında Əmlak Məsələləri Dövlət Xidmətinin proqnozu 48 milyon manat, büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar 895 milyon manat, sair daxilolmalar 1 milyard 392 milyon manat gözlənilir. Dövlət Neft Fondundan büdcəyə transfertlərin həcmi isə 11 milyard 900 milyon manat həcmində nəzərdə tutulur.

*E.CƏFƏRLİ*

# Rusiya iqtisadi sanksiyalar qarşısında...

**Hazırda dünyada baş verən hadisələr fonunda "sanksiya siyasəti" daha geniş şəkildə tətbiq olunmağa başlayıb. Dünyanın böyük dövlətləri və blokları qarşılıqlı olaraq sanksiyalar tətbiq etməklə öz üstünlüklərini təmin etməyə çalışırlar. Bu mənada son illərdə ən çox sanksiyalara məruz qalan ölkələrdən biri Rusiyadır. Sanksiya tətbiq edən ölkələr arasında ABŞ-ı lider hesab etmək mümkündür. Yeri gəlmişkən, bir neçə gün öncə ABŞ Konqresinin Nümayəndələr Palatası Rusiya rəsmilərini, maliyyə qurumlarını, energetika və müdafiə sektorlarını hədəf alan geniş sanksiyalar paketini səsverməyə çıxarıb. Sənəd 262 lehinə və 159 əleyhinə səslə təsdiqlənib. Qanun layihəsi daha əvvəl Senatda 86 səs lehinə, 11 səs əleyhinə olmaqla qəbul edilib. Layihə imzalanması üçün Prezident Donald Trampa göndərilib.**

## Tramp qanun layihəsini təsdiqləyib

Donald Tramp da qısa müddətdə Konqres tərəfindən qəbul edilmiş və Rusiyaya qarşı sanksiyaların sərtləşdirilməsini nəzərdə tutan qanun layihəsini imzalayıb. Bu barədə Ağ Evin saytında yerləşdirilən bəyanatda bildirilib. Bəyanatda qeyd olunduğu kimi, ABŞ lideri sentyabrın 18-də "Rusiyaya qarşı sanksiyaların, rüsumların və qadağaların tətbiqini və genişləndirilməsini, həmçinin İrana qarşı qüvvədə olan sanksiyaların müddətinin uzadılmasını nəzərdə tutan" layihəni təsdiq edib.

Sənəd Rusiyaya qarşı sanksiyaların sərtləşdirilməsi üzərində bir ildən çox çalışmış Cənubi Karolinanın mərhum senatoru Lindsi Qremin adını daşıyır. Layihə Rusiyanın sanksiyalardan yayınmasına kömək edən neft tankerlərini də hədəfə alır, həmçinin Rusiya enerjisinin əsas alıcılarına qarşı 100 faizədək gömrük rüsumlarının tətbiqinə imkan verir.

Qeyd edək ki, bu sənəd Donald Trampın Ağ Evə qayıtmasından sonra Ukraynanın dəstəklənməsinə yönəlmiş ən genişmiqyaslı qanunvericilik təşəbbüslərindən biri hesab olunur.

ABŞ əvvəllər də Rusyaya qarşı sanksiyalar tətbiq edib. Məsələn, bir müddət əvvəl ABŞ Maliyyə Nazirliyinin açıqlamasına görə, sanksiyalara "Rosneft" və "Lukoyl" neft şirkətləri də məruz qalıb. "ABŞ Maliyyə Nazirliyinin Xarici Aktivlərə Nəzarət İdarəsi Rusiyanın Ukraynadakı müharibənin sülh yolu ilə başa çatdırılması prosesinə ciddi sadiqlik göstərməməsi səbəbindən əlavə sanksiyalar tətbiq edir", - deyə Maliyyə Nazirliyinin açıqlamasında qeyd olunub. Siyahılarda təxminən 30 törəmə şirkəti olan "Rosneft"in "Sibneftegaz", "Rospaninterneşnl", "RN-Purneftegaz" kimi şirkətləri də sanksiyalara düşüb. ABŞ Maliyyə Nazirliyi açıqlamada "50 faiz qaydası"nı xatırladıb. Belə ki, "SDN List"də adıçəkilən şirkətlərin bütün törəmə şirkətləri, hətta "qara siyahı"da birbaşa adları çəkilməsə belə, sanksiya altında hesab olunur.

## Vaşinqton Kiyevə 2,68 milyard dollar həcmində silah da satacaq

Ukrayna Prezidenti Volodimir Zelenski isə bu qanun layihəsinin qəbuluna görə ABŞ-a təşəkkür edib. Bundan əlavə, onun Nyu-Yorka səfəri çərçivəsində D.Trampla görüşü gözlənilir. Bu barədə razılıq liderlərin telefon danışığında əldə olunub. Zelenski bu barədə özünün "Telegram" kanalında məlumat yayıb: "Prezident Trampla danışdım. Bu, vacib bir söhbət idi və biz bir çox məsələləri müzakirə etdik. Biz Nyu-Yorkda görüşməyə razılaşdıq və bu görüş çox şeyi dəyişə bilər".

Sanksiya siyasətinə paralel olaraq, ABŞ Dövlət Departamenti Ukraynaya ümumi dəyəri 2,68 milyard dollar olan hava hücumundan müdafiə sistemləri və sursatlarının mümkün satışını təsdiqləyib. Dövlət Departamentinin yaydığı məlumata görə, Ukrayna S-300 sistemlərinin raket analoqlarını, GAM-67 raketlərini, uzaqmənzilli lazerlə idarə olunan raket sistemlərini, özüyeriyən və mobil buraxılış qurğularını, pilotsuz uçuş aparatlarının aşkarlanması sistemlərini, habelə əlaqəli avadanlıq və texniki xidmətlərin alınmasını istəyib. Dövlət Departamenti sözügedən vasitələrin əsas hərbi texnika və silah kateqoriyasına aid olmadığını bildirib. Bəyanatda qeyd olunub ki, mümkün satışın Avropa ölkələri, eləcə də ABŞ-ın keçmiş prezidenti Co Bayden administrasiyası tərəfindən Ukraynaya ayrılmış vəsait hesabına maliyyələşdiriləsi nəzərdə tutulur. Bu məqsədlə xarici ölkələrə ABŞ istehsalı olan hərbi məhsulların alınması üçün qrant və kreditlər təqdim edən Xarici Hərbi Maliyyələşdirmə mexanizmindən istifadə ediləcək.




## Böyük Britaniya da Rusiyaya yönəlik sanksiyaları genişləndirir

ABŞ-ın strateji müttəfiqi olan Böyük Britaniya da Rusiyaya yönəlik sanksiyaları genişləndirir. Belə ki, yeni siyahıya 19 yeni şəxs və təşkilatı, o cümlədən Moskvanı dəstəkləməkdə və ya Rusiya enerji məhsullarını daşımaqda ittiham olunan altı gəmini əlavə edib. "The Guardian" nəşri xəbər verir ki, Böyük Britaniya xarici siyasət idarəsinin məlumatına görə, Rusiyanın 6 maliyyə qurumu - "Ozon Bank", Rusiya İxrac-İdxal Bankı, "Center-Invest Bank", "Realist Bank", "Bank Stavr" və "Teleport Bank" aktivlərin dondurulması, etibarnamə xidmətlərinin məhdudlaşdırılması və direktorların vəzifədən kənarlaşdırılması sanksiyaları ilə hədəfə alınıb.

Böyük Britaniya maliyyə qurumlarına, həmçinin sadalanan banklarla müxbir bank münasibətləri saxlamaq və ya onların vasitəsilə ödənişləri emal etmək qadağan edilib. "Northern Engineering" MMC də Rusiyanın strateji əhəmiyyətli enerji sektorundakı əməliyyatlarına görə sanksiyaya məruz qalıb. Bundan başqa, Hindistanda yerləşən "Frion Ship Management LLP" şirkəti "Arctic Express LNG" tankerinin Rusiyanın mülkiyyətinə və nəzarətinə verməsi səbəbindən siyahıya salınıb.

"Metallkomplekt", "Nikom", "Promsiz" və "Technolux" da daxil olmaqla Rusiyanın 4 şirkəti Ukraynanın qeyri-sabitliyinə və ya ərazi bütövlüyünə təhdid yaradan biləcək mal və ya texnologiya tədarük etdiyi iddiası ilə sanksiyalara məruz qalıb. Siyahıda, həmçinin "Siltron" kimya şirkətinin sahibi, Rusiya vətəndaşı Aleksandr Jdanov da var. O, aktivlərin dondurulması, səyahət qadağası, etibarnamə xidmətləri məhdudiyyətləri və direktorun diskvalifikasiyası tədbirləri ilə üzləşir. Altı gəmiçilik şirkəti - "Arctic Express", "Perseas", "Torvian", "Asteras", "Visund" və "Zenturo" da ticarət sanksiyaları altına alınıb.

Böyük Britaniya hökuməti bildirib ki, Rusiya bayrağı altında üzən "Arctic Express" tankeri Rusiya mənşəli mayeləşdirilmiş təbii qazı üçüncü ölkəyə daşıyıb. Digər beş gəmi isə Rusiyanın neft və ya neft məhsullarını üçüncü ölkələrə daşımağa ittiham olunub. Gəmilərin Böyük Britaniya limanlarına daxil olması qadağandır - onlar saxlanıla və ya əks istiqamətdə hərəkət etmələri üçün göstəriş verilə bilər. Həmin tankerlərə texniki, heyət, əməliyyat, çarter, vasitəçilik və ya maliyyə xidmətləri göstərmək də qadağandır. Böyük Britaniya maliyyə qurumlarına, həmçinin sadalanan banklarla müxbir bank münasibətləri saxlamaq və ya onlar vasitəsilə ödənişləri emal etmək qadağan olunub.

Avropa İttifaqı ölkələri isə iyul ayının sonlarında Rusiyaya qarşı 21-ci sanksiya paketi ilə bağlı razılığa gəlib. Bu paket bank sektoruna məhdudiyyətləri sərtləşdirmək və neft-qaz sənayesinə təzyiqi artırmaq məqsədi daşıyır. Paket Aİ-nin əməliyyat qadağaları siyahısına Rusiyanın 32 bankını əlavə edir, həmçinin kriptovalyuta şirkətlərini və neft ticarət platformalarını hədəf alan tədbirləri nəzərdə tutur. Aİ, həmçinin Moskvanın bazar şoklarından faydalanmasının qarşısını almaq üçün Rusiya neftinin qiymət həddinin tənzimlənməsini bir il müddətinə donduracaq. Bu sanksiyalarla həm də, Aİ ilk dəfə olaraq Rusiyanın "kölgə donanmasına" kömək edən gəmiləri də hədəfə alır.

## Rusiyanın hərbi-sənaye kompleksləri sanksiyalar siyahısında...

Bununla kifayətlənməyən rəsmi Brüssel avqust ayında isə Rusiyanın hərbi-sənaye kompleksini dəstəklədiyi iddia edilən beş şəxsə qarşı yeni sanksiyalar qəbul edib. Aİ Şurası bəyan edib ki, siyahıya alınan beş şəxs müdafiə və hərbi texnologiya sektorlarında fəaliyyət göstərən Rusiya şirkətlərində, o cümlədən Ukraynadakı müharibədə RF silahlı qüvvələri tərəfindən istifadə edilən hərbi texnikanın hazırlanması, istehsalı və təchizatı ilə məşğul olan firmalarda yüksək vəzifələr tutur. Qeyd olunub ki, sanksiyaya məruz qalanlar arasında Rusiyanın "İskəndər-M" ballistik raketində istifadə olunan sistemlər də daxil olmaqla dəqiq elektromexaniki komponentlərin istehsalı ilə məşğul olan "Serpuxov metallist zavodu" ASC-nin baş direktoru Ramil Badqutdinov da var.

Aİ, həmçinin RS-28 "Sarmat" raket sistemi də daxil olmaqla ballistik raketlərin istehsalı ilə məşğul olan "Krasnoyarsk Maşınqayırma Zavodu" ASC-nin baş direktoru Aleksandr Dyukarevi də siyahıya salıb. Şura bildirib ki, sanksiyaya məruz qalan digər şəxslər arasında hərbi rabitə sistemlərinin istehsalında, həmçinin pilotsuz uçuş aparatları və kosmosla əlaqəli hərbi texnologiyalar üçün proqram təminatının hazırlanmasında iştirak edən Rusiya şirkətlərinin rəhbərləri də var. Sanksiyalar rejimi altına düşən şəxslərin aktivləri dondurulur, onlara birbaşa və ya dolayı yolla vəsait və ya iqtisadi resursların verilməsi qadağandır. Bu şəxslər, həmçinin Aİ-yə üzv ölkələrə giriş və ya tranzit imkanlarının qarşısını alan səyahət qadağasına məruz qalırlar.

***N.BAYRAMLI***

## "Vahid Rusiya" ilk dəfə Dövlət Dumasında ən böyük fraksiyaya sahib olacaq




"Vahid Rusiya"nın 348-356 deputatdan ibarət fraksiya formalaşdıracağı gözlənilir. Buna qədər partiyanın ən yüksək göstəricisi 2016-cı il seçkilərinin nəticələrinə əsasən 343 mandat olub.

Mərkəzi Seçki Komissiyasının açıqladığı son məlumatlar göstərir ki, "Vahid Rusiya" IX çağırış Dövlət Dumasında sadəcə konstitusiya çoxluğu deyil, həmçinin tarixində ən böyük fraksiyanı əldə edir.

Partiya siyahıları üzrə protokolların 94,41 faizi işləndikdən sonra "Vahid Rusiya" 57,83 faiz səs toplayıb. Sonrakı yerlərdə 13,81 faiz səslə Kommunist Partiyası, 8,96 faizlə Liberal Demokrat Partiyası (LDPR), 7,97 faizlə "Yeni insanlar" və 4,96 faiz səslə "Ədalətli Rusiya" partiyası qərarlaşıb. "RBK" yazır ki, sonuncu partiya hazırda 5 faizlik baryeri keçə bilməyib və Dövlət Dumasına düşməmək təhlükəsi ilə üzləşir.

Beş faizlik baryeri keçməyən partiyaların səsləri yeni fraksiyalar arasında proporsional şəkildə bölüşdürülür. "Ədalətli Rusiya" 5 faizlik həddi keçərsə, "Vahid Rusiya" partiya siyahıları üzrə 225 deputat mandatından 139-nu əldə edə bilər. Bu halda say baxımından ikinci ən böyük fraksiyanı 33 mandatla Kommunist Partiyası formalaşdıracaq. LDPR 22, "Yeni insanlar" 19, "Ədalətli Rusiya" isə 12 mandat əldə edəcək.

Birmandatlı seçki dairələri "Vahid Rusiya"ya daha çox yer qazandırır. Hazırda partiya 225 dairədən 209-da liderdir. Kommunist Partiyası isə 5 mandat əldə edir.

## Fransanın dövlət borcu rekord həddə çata bilər



Fransanın dövlət borcu rekord həddə çatacağı gözlənilir. Hökumət bu il büdcə kəsirini azaltmağa nail ola bilmir, borc yükü də artmaqda davam edir.

AZƏRTAC xəbər verir ki, bu il dövlət borcunun ümumi daxili məhsula (ÜDM) nisbəti 119,3 faizə çatacaq.

İqtisadiyyat və Maliyyə Nazirliyinin proqnozlarına görə, gələn il bu göstərici ÜDM-in 121,7 faizini təşkil edəcək. Bu, milli statistika agentliyi "Insee"nin 1995-ci ildən etibarən ölçmələr aparmağa başladığı dövrdən bəri borc yükünün ən yüksək səviyyəsidir.

"Nu.nl" portalı yazır ki, borc yükü Avropa İttifaqı çərçivəsində razılaşdırılmış yuxarı həddən təxminən iki dəfə çoxdur. Ölkə büdcə razılaşmalarını pozduğu üçün artıq iki ildir Brüsselin nəzarəti altındadır.

Bu il büdcə kəsirinin ÜDM-in 5,4 faizinə yüksələcəyi gözlənilir. Gələn il bu göstərici 5 faizə qədər azalacaq, lakin bu, Avropada icazə verilən maksimum 3 faizlik səviyyədən yenə də yüksək olacaq.

Fransa dövlət borcunun həcminə görə Avropa İttifaqında Yunanıstan və İtaliyadan sonra üçüncü yerdədir.

Baş nazir Sebastyən Lökornü bu həftə 2027-ci il büdcəsində 54 milyard avro həcmində düzəliş və ixtisarların həyata keçirilməsini nəzərdə tutan təklifləri açıqlayıb. Bununla belə, o, pensiyalar kimi həssas məsələlərlə bağlı qərarları parlamentin mülahizəsinə buraxır. Qənaət tədbirləri ilə bağlı razılaşmaların əldə olunması çətin ola bilər, çünki gələn il keçiriləcək seçkilər ərəfəsində müxalifət partiyalarının bu tədbirlərə maraq göstərməyəcəyi ehtimal olunur.

## BVF üç ilə dünya üzrə dövlət borcunun ÜDM-in 100%-ni ötəcəyini gözləyir



Qlobal dövlət borcu, əsasən ABŞ və Çin borcunun artması səbəbindən, əvvəllər proqnozlaşdırılandan iki il tez, 2029-cu ilə qədər qlobal ÜDM-in 100%-ni keçəcək.

"Bloomberg"in məlumatına görə, bunu Beynəlxalq Valyuta Fondunun (BVF) direktoru Kristalina Georgiyeva bildirib.

Onun sözlərinə görə, BVF ABŞ-ı dövlət maliyyəsinin vəziyyətinə diqqət yetirməyə çağırır.

"ABŞ-ın maliyyə naziri Skott Bessentlə danışıqlardan sonra mövcud vəziyyətin dayanıqlı olmadığı və Vaşinqtonun büdcə kəsirini və dövlət borcunu tədricən azaltmasının zəruri olduğu barədə anlayış yaranıb", - deyə Georgiyeva bildirib.

O, həmçinin xəbərdarlıq edib ki, yüksək inflyasiyanın davam etməsi mərkəzi bankları uçot dərəcələrini artırmağa məcbur edə bilər. Borclanma xərclərinin artması isə dövlət borcuna xidmət göstərilməsini çətinləşdirəcək.

BVF rəhbəri qeyd edib ki, enerji təchizatında və nəqliyyat infrastrukturunda yaranan fasilələr Qətər, Küveyt və İraq kimi ölkələrin iqtisadiyyatlarının kəskin şəkildə kiçilməsinə səbəb ola bilər.

Qurum 2026-cı ildə Qətər iqtisadiyyatının 8,6% daralacağını proqnozlaşdırır. İranla müharibə başlamazdan əvvəl isə fond ölkə iqtisadiyyatının 6,1% artacağını gözləyirdi.

# Sözün diplomatiyası: Begijan Ahmedov yaradıcılığının mənəvi-estetik dünyası



Müasir dövrdə ədəbiyyatın funksiyası yalnız estetik zövq yaratmaqla məhdudlaşmır. Sürətlə dəyişən sosial-mədəni münasibətlər, qloballaşma, milli identiklik problemləri, tarixi yaddaşın deformasiyası və mədəniyyətlərarası münasibətlərin mürəkkəbləşməsi yazıçı və ziyalının cəmiyyətdəki roluna yeni məzmun qazandırır. Bu baxımdan nasir yalnız bədii mətn yaradan sənətkar deyil, həm də ictimai yaddaşın daşıyıcısı, mənəvi dəyərlərin təbliğatçısı və mədəni dialoqun iştirakçısı missiyası ilə çıxış edir.

Qırğızıstanın Əməkdar mədəniyyət xadimi, Çingiz Aytmatov Akademiyasının Fəxri Akademiki, Qırğızıstan, Azərbaycan və Özbəkistan Yazıçılar Birliklərinin fəxri üzvü, Beynəlxalq Küveyt Universitetinin və Babur adına Əndican Dövlət Universitetinin Fəxri professoru, Beynəlxalq ədəbi mükafatların laureatı Begijan Mahmudoviç Ahmedov intellektual ziyalı nümayəndələrindəndir. O, yazıçı, şair, tərcüməçi və tarixçi olmaqla yanaşı, uzun illərdir sufizmin həssas tədqiqatçısı, fəal ictimai xadim kimi də çalışmalar aparır. Ədəbi yaradıcılığı ilə elmi-publisistik düşüncəsini birləşdirən Begijan Ahmedovun yaradıcılıq yolu, çoxşaxəli fəaliyyəti müasir Mərkəzi Asiyanın mürəkkəb sosial-mədəni reallıqları fonunda xüsusi maraq doğurur.

Begijan Ahmedov 300-dən artıq məqalə və müsahibənin, 22 elmi tədqiqatın və on kitabın müəllifidir. Onun yaradıcılıq platformasında ictimai-siyasi düşüncə və mədəni diplomatiya bir-birini tamamlayan sahələr kimi çıxış edir. Maarifçi-yazıçının əsərləri dünyanın ondan artıq dillərinə tərcümə edilib. Brüssel, Nyu-York, Orlando, Atlanta, Novosibirsk, Bakı, Pekin, Daşkənd, Bişkek, Oş, Əndican, Fərqanə, Namanqan şəhərlərində kitablarının təqdimatları keçirilib.

Nizaminin adını daşıyan Daşkənd Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsində təhsil almasını Begijan Ahmedov həyatının unudulmaz məqamı kimi çox böyük qürurla xatırlayır və qeyd edir ki, Nizami ruhu və Nizami dühası bütün ömrü boyu onu müşayiət edib. Begijan Ahmedovun tarixçi təfəkkürü keçmişlə müasirlik arasındakı əlaqələri görməyə, təhlükəsizlik sahəsindəki uzunmüddətli fəaliyyəti isə cəmiyyətin sosial və ideoloji proseslərini daha mürəkkəb kontekstdə dərk etməyə imkan verirdi.



Bu müstəvidə tarixçiliklə yazıçılıq arasında mühüm bir transformasiya baş verir: tarixçi hadisəni araşdırır, yazıçı isə hadisənin insan taleyindəki mənasını axtarır. Yazıçı-publisist üçün insanın dünyadakı yeri, həyatın mənası, mənəvi seçim, vicdan, həqiqət və özünüdərk kimi problemlər diqqət mərkəzində dayanır. Onun əsərlərində tarix yalnız "baş vermiş hadisələrin xronikası" deyil, bu günün mənəvi problemlərini anlamaq üçün yaddaş məkanıdır.

Görkəmli qələm sahibi Begijan Ahmedovun ədəbi yaradıcılığında bədii söz ilk növbədə insanı öz daxilinə yönəldən bir idrak vasitəsidir; amma onun yaradıcılığını yalnız "bədii ədəbiyyat" kateqoriyası ilə məhdudlaşdırmaq düzgün olmaz. Burada tarixin yaddaşı ilə bədii-fəlsəfi idrak ecazkar vəhdət yaradır. Görkəmli romanistin ədəbi kredosunda müstəsna mövqedə yerləşən nəsr əsərlərindən biri fəlsəfi-macəra janrında olan və real hadisələrdən bəhs edən "Dərviş" romanıdır. Şərq və islam mədəniyyətində dərviş yalnız müəyyən dini-mistik təriqətə mənsub insan deyil; həm də həqiqəti axtaran, zahiri dünyanın sərhədlərindən daxili aləmə doğru hərəkət edən insan obrazıdır. Bu mənada Ahmedovun Dərvişi konkret bir personaj olmaqdan daha artıq məna qazana bilir: o, müasir insanın mənəvi axtarışının arxetipidir. Müasir texnoloji tərəqqinin sürətləndiyi, bununla yanaşı isə insanın daxili dünyasında mənəvi boşluğun dərinləşdiyi bir zamanda "Dərviş" obrazının estetik-fəlsəfi məcrada yenidən doğulması keçmişə qayıdış (nostalgiya) deyil. Bu, müasir insanın düçar olduğu ruhsal boşluğu doldurmaq, qloballaşan dünyada fərdi kimliyi xilas etmək üçün qədim və arxetipik bir modelin müasir intellektual bədii dillə yenidən sintezidir.

Misir, Böyük Britaniya, ABŞ, Qırğızıstan, Özbəkistan, Tacikistan, Qazaxıstan, Azərbaycan, Belarus və digər ölkələrin görkəmli ictimai xadimləri, alim və yazıçıları "Dərviş" romanının bədii məziyyətlərini belə dəyərləndirirlər: "B.Ahmedov Orta Asiyada mənəvi dirçəlişin təməlini qoyan mənəvi və intellektual topoqrafiya yaratmağa müvəffəq olur" (Mark Edvard Riz, Amerikalı şərqşünas-kulturoloq); "... müasir dünyanın gəncləri üçün mənəvi bir mesaj olan "Dərviş" romanı əxlaqi deqradasiya, dini ekstremizm və kainatın universal dəyərlərindən və prinsiplərindən geri çəkilmə ilə bağlı bir sıra aktual humanitar məsələlərə toxunur (Səid Abdel Qaffar, Misir Nyu-Velli Universitetinin professoru); "...insan təbiətinin ən kədərli və heyrətamiz hekayəsi... Mərkəzi Asiyanın mədəniyyəti və mənəviyyatı haqqında məlumat əldə etmək istəyən hər kəs üçün mükəmməldir" (filoloq Conatan Kempion, Böyük Britaniya); "Dərviş" romanı geniş kütlələrə ünvanlanan, sülhə, insan həyatının qorunmasına çağıran ibrətamiz nəsihətdir... və bu gün Asiya və Avropa xalqları üçün nə qədər aktualdır!" (Mar Bayciyev, Qırğızıstanın xalq yazıçısı); "Begijan Ahmedov ədəbi orbitə meteor kimi daxil oldu... o, təkcə Qırğızıstanda deyil, həm də onun hüdudlarından kənarda iti qələm sahibi olan yazıçı, filosof... kimi tanındı" (Markabay Aamatov, Qırğızıstanın xalq şairi, Əməkdar mədəniyyət xadimi); Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Axtoti Raimkulovanın fikrincə "Begijan Ahmedov türk irsinin tarixinin qorunub saxlanılmasına töhfə verir".

Qırğızıstan Milli Yazıçılar Birliyi və Çingiz Aytmatov Beynəlxalq İssık-Kul Forumunun birgə qərarı ilə "Dərviş" romanının "2020-ci ilin ən yaxşı kitabı" seçilməsi Begijan Ahmedov yaradıcılığının yalnız milli deyil, beynəlxalq ədəbi mühitdə də diqqət çəkdiyini göstərən mühüm ədəbi-mədəni faktdır.

Dünyanın bir çox dillərində çap olunan "Dərviş" romanını Azərbaycan dilinə Munisa İsmayılova çevirmiş, 2024-cü ildə kitabın Azərbaycan Yazıçılar Birliyində Türk mədəniyyəti və irsi" fondunda təqdimatı keçirilmiş, Begijan Ahmedov Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü seçilmiş, elə buradaca Ümumtürk mədəniyyəti və ədəbiyyatı qarşısında göstərdiyi böyük xidmətlərə görə Mahmuq Kaşqari adına Beynəlxalq Fondun Mahmuq Kaşqari mükafatı ilə təltif olunmuşdur.

Begijanın yaradıcılığının ən ali cəhəti onun sufizmə bağlılığı, Şərq fəlsəfəsi, islam cərəyanları, sivilizasiyalararası ilə dialoq mövzularında tədqiqatlarıdır. O, Mədəniyyətlər, Sivilizasiyalar və Dinlər Tarixinin Öyrənilməsi üzrə Beynəlxalq Elm-Maarif və Təhsil Mərkəzinin ("Rumi Fondu") baş direktorudur. Onun bu çığırda atılan hər bir uğurlu və dəyərli addımı bədii yaradıcılığı ilə paraleldə bir-birini bəsləyən heyranedici bütövlük yaradır.

B.Ahmedovun yaradıcılıq dünyasına diqqət yetirdikdə daha bir mühüm xüsusiyyət aydın görünür: onun üçün ədəbiyyat yalnız estetik fəaliyyət sahəsi deyil, həm də mənəvi maarifçilik vasitəsidir. Təsadüfi deyil ki, Begijan Ahmedovun ictimai-ədəbi fəaliyyətində publisistika və maarifçiliyin xüsusi anlamı duyulur. O, yazıçının və ziyalının cəmiyyət qarşısında məsuliyyət daşıdığını, ədəbiyyatın yalnız əyləncə və ya estetik zövq vasitəsi olmadığını, həm də insanın mənəvi dünyasının formalaşmasına xidmət etdiyini vurğulayır. Begijanın fikirlərində qələm sahibinin cəmiyyəti düşünməyə, özünü dərk etməyə və daha sağlam mənəvi dəyərlərə yönəltmək missiyası ön plana çıxır. Bu mənada o, Mərkəzi Asiyanın klassik maarifçilik və humanist düşüncə ənənəsini müasir dövrdə davam etdirən ziyalı tipinə yaxındır.

İctimai xadim olaraq Begijan bəy Qırğızıstanda, Avrasiya regionunda və ümumilikdə dünyada sülhün, sabitliyin, millətlərarası harmoniyanın və xalqlar arasında dostluğun möhkəmləndirilməsi üçün fəaliyyətlərini geniş müstəvilərdə təqdim edir. Begijan Ahmedov BMT-nin toplantılarında, müxtəlif mövzulu forumlarda mədəniyyətlər, sivilizasiyalar, dinlər və dünya xalqları arasında dialoqların inkişafını, eləcə də zamanında tərəqqipərvər yazıçı Çingiz Aytmatovun təşəbbüsü ilə yaradılan Orta Asiya Xalqları Mədəniyyətləri Assambleyasının yenidən qurulmasını müdafiə edir; aktiv ictimai, ədəbi-bədii çalışmalarında tarixi yaddaşın qorunması yolunun üfüqlərini aydınladan səyləri nəcib işgüzarlığın ən parlaq nümunəsi kimi dəyərləndirir.



Sədi Şirazinin "Bəni Adəm" - "Adəm övladları" şeiri BMT-nin Nyu-Yorkdakı binasının iclas zalının divarında yerləşdirilmiş böyük İran xalçasının üzərində qızılı hərflərlə toxunub. Bu şeirin BMT məkanında təqdim olunması təsadüfi simvolika deyil. BMT-nin əsas ideyalarından biri xalqların, dövlətlərin və insanların qarşılıqlı əməkdaşlığı, sülh və insan hüquqlarının qorunmasıdır. Sədinin poetik formulu isə bu ideyanı daha qədim və daha universal səviyyədə ifadə edir: "Başqasının dərdi mənim dərdimdir". Müasir dünyada müharibələr, miqrasiya, aclıq, ayrı-seçkilik, ekoloji böhran, texnoloji risklər və süni intellektin yaratdığı yeni suallar insanlığın qarşılıqlı asılılığını daha da artırır.

BMT məkanında yerləşdirilmiş sənət nümunəsində - Sədinin bu kiçik şeiri nəhəng bəşəriyyət ideyasının poetik simvoluna çevrilir və "Başqasının ağrısına münasibətimiz necədir?" sualı ilə aktuallaşır. Həqiqətən də başqasının ağrısına ürək yandırmaq həssasiyyətini isə Begijan Ahmedov özünün vicdan borcu kimi qəbul edir. Belə xüsusi diqqətin nəticəsi onun İkinci Dünya müharibəsi iştirakçılarının və qəhrəmanlarının xatirəsinin əbədiləşdirilməsi istiqamətində təşəbbüslərində bariz nümunə olaraq təqdir edilir. Bu, cəmiyyətin öz mənəvi köklərini, qəhrəmanlıq nümunələrini və tarixi təcrübəsini gələcək nəsillərə ötürmək funksiyasının daşıyıcıdır.

Begijanın qələm dostu B.Abdraxmanovla birgə yazdığı "Qırğızıstanda Stalin repressiyalarının qurbanları - Özbəklərin Xatirə Kitabı" bu qəbildən olan çalışmalarındandır. B.Ahmedovun fəaliyyətində diqqəti cəlb edən başqa bir istiqamət Qırğızıstan-Özbəkistan münasibətlərinin inkişafına xidmət edən mədəni layihələr, qırğız və özbək xalqlarının ortaq mədəni irsinin təbliğidir.

Yazıçı və ictimai xadim B.M.Ahmedov ismi Qırğızıstandakı etnik özbəklərin görkəmli nümayəndələri haqqında tərtib edilən "Vətənin çiçəklənməsi naminə" ensiklopedik toplusuna daxil edilmişdir. Onun müəllifi olduğu "Oyçuldar qülbaqı" ("Fikir bağçası") kitabı Qırğızıstanda yaşamış qırğız və özbək mənşəli mütəfəkkir, dövlət xadimi, şair və yazıçıların iki xalq arasında dostluğun möhkəmləndirilməsinə verdiyi töhfələri təqdim etmək məqsədi daşıyır. Çünki milli və etnik münasibətlər yalnız fərqliliklər üzərində qurulduqda qarşıdurma riski artır. Ortaq tarixi yaddaş isə fərqliliklərin içərisində ortaq dəyərləri üzə çıxarır. Begijan Ahmedovun bu fəaliyyətində tarix artıq keçmişin təsviri deyil, gələcəyin sosial harmoniyasını formalaşdıran vasitədir. Bu fakt onun ədəbi-mədəni əlaqələr sahəsindəki fəaliyyətinin praktiki nümunələrindən biri kimi yazıçı və ictimai xadim obrazlarını tandemləşdirir. Begijan bəyin şəxsiyyətini səciyyələndirən əsas xüsusiyyət onun müxtəlif fəaliyyət sahələrini vahid bir mənəvi məqsəd ətrafında birləşdirə bilməsidir. Bu məqsəd insanın mənəvi kamilləşməsi, tarixi yaddaşın qorunması, xalqlar arasında qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi və mədəni dialoqun inkişafıdır.

O, ədəbiyyatı yalnız oxucu ilə müəllif arasındakı münasibət kimi deyil, xalqdan xalqa dialoq vasitəsi kimi qəbul edir. Bu yönümdə olan yaradıcılığında Çingiz Aytmatov fenomeninin də xüsusi əhəmiyyət daşıması təbiidir. Aytmatovun bədii irsində insan, yaddaş, milli kimlik, təbiət və ümumbəşəri dəyərlər arasında qurulan əlaqə Mərkəzi Asiyanın ədəbi düşüncəsində universal model yaratmışdır.

Begijan Ahmedovun ictimai fəaliyyətində əhəmiyyətli istiqamətlərdən biri millətlərarası və mədəniyyətlərarası dialoqdur. Qırğızıstan kimi çoxmillətli sosial-mədəni məkanda bu fəaliyyət xüsusi əhəmiyyət kəsb edir. O, Qırğızıstanın və bütövlükdə Mərkəzi Asiyanın müxtəlif xalqları arasında qarşılıqlı anlaşmanın, etnik razılığın və dostluğun möhkəmləndirilməsi ideyasını müdafiə edir. B.Ahmedovun fikrincə mədəniyyətlərarası dialoq yalnız rəsmi diplomatik anlayış deyil. Bu, xalqların bir-birini tanıması, onların ədəbiyyatlarının qarşılıqlı tərcüməsi, ortaq tarixi şəxsiyyətlərin yenidən araşdırılması və humanist dəyərlərin bölüşdürülməsi deməkdir.

Son illərdə Azərbaycan ədəbi-mədəni prosesində də onun publisistik və elmi məqalələrinin yer alması bu qarşılıqlı mədəni əlaqələrin davam etdiyini göstərir. Ötən il "Ədəbiyyat qəzeti"ndə Azərbaycanın Ustad sənətkarı, Əməkdar mədəniyyət işçisi, aktyor, rejissor, dramaturq İftixarın yaradıcılığı və yaradıcı müəllifi olduğu "Qeyri-səlis teatrı" konsepsiyası haqqında geniş araşdırması dərc edilmişdir. Bu fakt Begijanın elmi maraq dairəsinin ədəbiyyatdan fəlsəfəyə, tarixdən teatr nəzəriyyəsinə qədər dərin olduğunu nümayiş etdirir.

Ötən il Begijan Ahmedovun təşəbbüsü ilə Bişkek Yazıçılar Birliyində İftixar Piriyevin iki kitabının - "Elçin teatrı: Absurd dram "Qeyri-səlis məntiq" nəzəriyyəsi kontekstində" və "Qeyri-səlis məntiq və teatr" monoqrafiyalarının təntənəli təqdimat mərasimi keçirildi. Əlbəttə ki, bunlar iki xalq arasında ədəbiyyat, incəsənət, tarix, dil və ortaq mənəvi dəyərlər vasitəsilə yaxınlaşmanın yeni dövr təzahürü idi.

Bişkekdə reallaşan əlamətdar hadisələr münasibəti ilə Qırğızıstan Respublikasının Əməkdar mədəniyyət xadimi Begijan Ahmedov yazır: "2025-ci ildə xalqlar arasında sülhün və dostluğun sənət vasitəsilə möhkəmləndirilməsinə verdiyi töhfəyə, o cümlədən Azərbaycan - Qırğız ədəbi-teatr əlaqələrinin inkişafına görə Beynəlxalq İssık-Kul Forumunun Rəyasət Heyətinin qərarı ilə İftixar Piriyev Çingiz Aytmatov adına medalla təltif olundu. Bişkekdə İftixarın "Qeyri-səlis məntiq" mövzusunda monoqrafiyalarının təqdimatları teatr sənətinə yenilik və töhfə kimi qiymətləndirildi. Çox rəmzidir ki, Çingiz Aytmatov insanilik və vicdan haqqında yazırdı. İftixar Piriyev isə vicdanı tamaşanın mərkəzinə qoyur ki, tamaşaçı sadəcə baxmasın, öz həqiqi mənini xatırlasın...İftixar Piriyevin istedadının və xarakterinin xüsusi cəhətlərindən biri cəsarət və novatorluqdur - adətən ayrılıqda mövcud olan sahələri, dərin nəzəriyyə ilə səhnə praktikasını birləşdirməkdən çəkinməyən tədqiqatçıdır. İftixar Piriyev fenomeni ondadır ki, onun əsərlərində və baxışlarında humanitar düşüncə cəsarətlə adi fənnlərarası sərhədləri aşır və Lütfi Zadənin riyazi əsaslandırılmış nəzəriyyəsi ilə dialoqa girir, dramaturgiya və səhnə təcrübəsinin təhlili üçün yeni metodoloji linza yaradır. Böyük Mövlana Rumi dünyaya deyirdi: "Gəl, yenə gəl!". Bu, ümidə və mənəvi yüksəlişə çağırışdır. Mənə elə gəlir ki, İftixar Piriyev ömrü boyu bu ifadəni sözlə yox, əməllə deyənlərdəndir: "mənaya təkrar-təkrar gəl, mədəniyyətə məsuliyyət kimi gəl, dostluğa əmanət kimi gəl...".

Böyük Mövlanənin mənəvi yüksəlişə çağırışı fikirlərini ilahi eşqin təcəllasının nuruna bürünən, estetik-dramatik-romantik-ruhaniyyat cəhətləri ilə seçilən ikihissəli mistik, lirik, fəlsəfi-psixoloji qeyri-səlis simfonik uydurma - elegiya janrında yazılan və təsəvvürən qurulan (gələcəyin tamaşası olaraq), ədəbiyyat və incəsənət xadimləri Begijan Ahmedov və İftixar Piriyevin birgə yaradıcılıq tandeminin məhsulu olan "Yenə gəl - Mövlanə Cəlaləddin Rumi" adlı səhnə əsərinin möcüzəvi dünyası sübuta yetirir. Görkəmli mədəniyyət xadimi, şair-dramaturq, rejissor, "Qeyri-səlis teatrı" sisteminin yaradıcısı, sənətşünaslıq üzrə fəlsəfə doktoru İftixar Piriyev Begijana iki millət arasındakı münasibətlər kontekstində yox, bir xalqın qanından, genindən yaranmış qardaşlıq münasibəti timsalında və Şəms Təbrizi və Mövlanə Cəlaləddin Rumi miqyasının hərarətində baxır və "Begijan - özbək, qırğız, tacik, azərbaycan mədəni mühitinin Turan təmçilçisidir", - fikrini ortaya qoyur.

İki qardaş xalqın görkəmli ədiblərinin ərsəyə gətirdikləri bu orijinal əsər XIII əsrin böyük sufi şairi, mütəfəkkiri, irfan yolunun ecazkar yolçusu Mövlanənin "eşq yanğısı" ideyasının həm poetik, həm mifoloji, həm də analitik qatlara malik səhnə-kompozisiya təəssüratı yaradan ilk nadir ədəbi nümunəsidir. Hər iki müəllifin sufizmə marağı yalnız keçmişə yönəlmiş tarixi araşdırma deyil, həm də müasir insanın mənəvi böhranına cavab axtarışı kimi dəyərləndirilə bilər.




Pyesdəki personajlar - tarixi şəxsiyyətlər, görkəmli söz ustadlarının bədii surətləri, müəllif təxəyyülündən qaynaqlanan personajlar süjet xəttinin çoxqatlı arealında bitkin kompozisiya yaradır. Burada insan ruhunu duyaraq anlayan və ona yol göstərən, hikməti ilə ilahi eşqi insanlaşdıran qüdrətli söz və fikir ustadı Mövlanənin bədii obrazı dövrün mürəkkəb hadisələri fonunda, ilahi qüvvəyə malik insan paradiqması mündəricəsində canlandırılır. Bu baxımdan Begijan Ahmedovun yaradıcılığını "mədəni yaddaş və mənəvi dialoq dramaturgiyası" kimi metaforik şəkildə də xarakterizə etmək mümkündür. Burada "dramaturgiya" sözü klassik pyes quruluşu mənasında deyil, müxtəlif ideyaların - tarix və müasirlik, insan və cəmiyyət, din və dünyəvilik, milli yaddaş və ümumbəşəri dəyərlər, fərqlilik və həmrəylik - qarşılıqlı münasibət sistemi kimi başa düşülməlidir.

Azərbaycan və Qırğızıstanın ədəbi-mədəni münasibətləri ortaq türk mənşəyi ilə yanaşı, geniş Mərkəzi Asiya və Şərq mədəniyyətinin ümumi mənəvi kodları üzərində qurulur. Xüsusilə: Nizami - Nəsimi - Füzuli - Nəvai - Yasəvi - Rumi - Aytmatov kimi böyük dahilərin yaratdığı mənəvi-coğrafi məkan xalqların ədəbi düşüncəsini bir-birinə bağlayan mühüm faktordur. Begijan Ahmedovun Nəvai irsinə, Rumi fəlsəfəsinə, Aytmatov yaradıcılığına və türk xalqları arasındakı mədəni əlaqələrə marağı onun yaradıcılığını teatrşünaslıq və kulturologiya üçün də maraqlı edir.

Fürsətdən istifadə edərək yazı müəllifi Azərbaycanın həqiqi dostu Begijan Ahmedovu doğum günü münasibəti ilə təbrik edir:

Hörmətli Begijan Maxmudoviç! Azərbaycan ziyalıları adından doğum gününüzü təbrik edir, çoxtərəfli fəaliyyətinizdə yeni zirvələr arzulayırıq. Siz bədii sözün diplomatiyası ilə ictimai fikrin, tarixlə müasirliyin, Şərq mənəviyyatı ilə çağdaş insan problemlərinin qovuşuğunda işləklik göstərən çox dəyərli ziyalı intellektualsınız. Yaradıcılığınız Türk xalqlarının ortaq mədəni məkanının öyrənilməsi baxımından olduqca əhəmiyyətlidir. Qırğız, özbək, Azərbaycan və ümumən bütöv türk xalqlarının ədəbi-mədəni əlaqələri məhz Sizin kimi ünlü şəxsiyyətlərin fəaliyyəti vasitəsilə konkret məzmun qazanır. Beynəlxalq Forumlardakı çıxışlarınızda qeyd edirsiniz ki, "Türkdilli xalqların vahid dili, vahid dini, tarixi kökləri olan sərhədləri var. Dövlət başçılarımızın səyləri ilə bu sərhədlər vahid mədəni məkana çevrilməkdədir". Siz 2026-cı il Fərqanədə keçirilən "Mərkəzi Asiya və Azərbaycan Dostluq Forumu"nda Mərkəzi Asiyanı Azərbaycan olmadan, Turanı isə Tacikistansız təsəvvür edə bilmədiyinizi vurğuladınız. Yazıçılıq fəaliyyətiniz, ictimai işləriniz ədəbiyyatın cəmiyyət qarşısında məsuliyyət daşıya biləcəyini, tarixi yaddaşın xalqlar arasında ayrılıq deyil, yaxınlaşma vasitəsinə çevriləcəyini və mənəvi dəyərlərin müasir ictimai dialoqun mühüm əsası olduğunu nümayiş etdirir. Yaradıcılığınız Mərkəzi Asiya xalqlarının ortaq mədəni məkanının öyrənilməsi baxımından da əhəmiyyətlidir. Qırğız, özbək, Azərbaycan və ümumən türk xalqlarının ədəbi-mədəni əlaqələri məhz Sizin kimi şəxsiyyətlərin vasitəsilə konkret məzmun qazanır.



***Nərminə AĞAYEVA,***
***Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






# Autizmli uşaqların sayı...

## Artan rəqəmlər nə ilə bağlıdır?

**Bir vaxtlar cəmiyyətdə autizm haqqında az danışılırdı. Bu gün isə demək olar ki, çox sayda valideyn autizmlə yaxından tanışdır. Uşağın danışmasının gecikməsi, göz təmasının az olması və sosial ünsiyyətdə çətinlik çəkməsi valideynləri əvvəlkindən daha çox narahat edir. Nəticədə statistik rəqəmlər də dəyişir. Autizm göstəricilərinin artmasında mühüm səbəblərdən biri onun daha yaxşı tanınmasıdır. Əvvəllər autizm spektrində olan bəzi uşaqlar başqa inkişaf problemləri ilə qiymətləndirilir, ya da onlara autizm diaqnozu qoyulmurdu. Zaman keçdikcə həm valideynlərin, həm pediatrların, həm də digər mütəxəssislərin məlumatlılığı artıb. Beləliklə, diaqnostik yanaşmaların genişlənməsi rəqəmlərə təsir edib. Amerika Pediatriya Akademiyası son onilliklərdə artan göstəricilərdə diaqnostik meyarların dəyişməsi, maariflənmənin yüksəlməsi, skrininqin genişlənməsi və erkən müdaxilə xidmətlərinin əlçatanlığının artması kimi amillərin rolunu qeyd edir. Başqa sözlə, bu gün rəqəmlərin yüksəlməsi müəyyən mənada əvvəllər diqqətdən kənarda qalan uşaqların da statistikaya daxil olması ilə əlaqəli ola bilər.**

### Autizmin səbəbi nədir?

Bu sualın hələ də bir cümləlik cavabı yoxdur. Autizm neyroinkişaf xüsusiyyətidir və onun tək bir səbəbdən meydana gəldiyi düşünülmür. Elmi araşdırmalar genetik amillərin mühüm rol oynadığını göstərir. Bununla yanaşı, prenatal dövr və erkən beyin inkişafı ilə əlaqəli müəyyən bioloji və ətraf mühit amillərinin də rol oynaya biləcəyi araşdırılır. Burada söhbət bir amilin mütləq səbəb olmasından deyil, müxtəlif amillərin qarşılıqlı təsirindən gedir. Ona görə də “autizmin səbəbi məhz budur” tipli qəti iddialara ehtiyatla yanaşmaq lazımdır.

### Valideynlər nəyi bilməlidir?

Autizmlə bağlı ən vacib məsələlərdən biri erkən fərq edilmədir. Uşağın inkişafında nitq, sosial ünsiyyət, davranış və digər sahələrdə fərqliliklər müşahidə olunarsa, bunu “gec danışacaq”, “xarakteri belədir” deyərək uzun müddət gözlətmək düzgün yanaşma olmaya bilər. Uşaqların inkişaf tempi fərqli ola bilər. Ancaq valideyni narahat edən davamlı bir xüsusiyyət varsa, pediatr və inkişaf üzrə mütəxəssislə məsləhətləşmək həmin narahatlığın səbəbini aydınlaşdırmağa kömək edə bilər.

Erkən müəyyənləşdirmənin əhəmiyyəti də məhz buradadır. Uşağın ehtiyacları nə qədər tez müəyyənləşdirilərsə, ona uyğun dəstək və inkişaf imkanlarını planlaşdırmaq bir o qədər asanlaşır.

### “Autizm epidemiyası” demək nə dərəcədə doğrudur?

Artan statistika bəzən “autizm epidemiyası” ifadəsinin işlədilməsinə səbəb olur. Lakin bu ifadə məsələnin elmi mahiyyətini tam əks etdirmir. Çünki diaqnozların artması ilə autizmin real bioloji yayılmasının artmasını bir-birindən ayırmaq çətindir. Mütəxəssislər də məhz buna görə statistik göstəriciləri şərh edərkən diaqnostik meyarların, skrininqin, səhiyyə xidmətlərinə çıxışın və cəmiyyətin məlumatlılıq səviyyəsinin dəyişməsini nəzərə alırlar. Müxtəlif bölgələrdə fərqli göstəricilərin olması da yalnız biologiya ilə izah edilə bilməz. Diaqnostika və xidmətlərə çıxış imkanları da nəticələrə təsir edir.

Bir məsələ isə artıq kifayət qədər aydındır: autizm haqqında məlumatlılığın artması mənfi hal deyil. Əksinə, daha çox uşağın vaxtında tanınması onların ehtiyaclarına uyğun dəstəyin göstərilməsinə imkan yaradır.

### Autizmli uşaqların sayı niyə artır?

Mövzu ilə bağlı “Yeni Azərbaycan”a danışan klinik psixoloq Aynurə Məcidova bildirib ki, son illər autizm diaqnozlarının artmasını yalnız bir səbəblə əlaqələndirmək düzgün deyil: “Burada ilk növbədə autizmin daha yaxşı tanınmasını qeyd etmək lazımdır. Əvvəllər müəyyən davranış və inkişaf xüsusiyyətləri olan uşaqların bir hissəsi ümumiyyətlə autizm baxımından qiymətləndirilmirdi. Bu gün isə valideynlərin məlumatlılığı daha yüksəkdir. Diaqnostik yanaşmaların inkişafı da daha çox uşağın müəyyən edilməsinə şərait yaradır.

Autizmin yaranmasını bir səbəblə izah etmək mümkün deyil. Çünki autizm spektr pozuntusu mürəkkəb neyroinkişaf xüsusiyyətidir. Genetik amillərin mühüm rolu olduğu məlumdur. Bununla yanaşı, prenatal və erkən inkişaf dövrü ilə əlaqəli müxtəlif bioloji amillər də tədqiq edilir. Lakin bunların heç birini bütün hallarda autizmin birbaşa səbəbi kimi təqdim etmək olmaz”.

### İlk travmanı valideynlər alır...

A.Məcidova valideynlərə uşağın inkişafındakı fərqlilikləri görməzlikdən gəlməməyi tövsiyə edib: “Uşaqda nitq və sosial ünsiyyətin inkişafında nəzərəçarpan gecikmə, göz təmasının və qarşılıqlı ünsiyyətin məhdudluğu, təkrarlanan davranışlar və ya yaşına uyğun olmayan digər inkişaf xüsusiyyətləri müşahidə olunursa, mütləq mütəxəssisə müraciət etmək lazımdır. Bu əlamətlərin olması avtomatik olaraq autizm diaqnozu demək deyil. Qiymətləndirmə kompleks şəkildə aparılmalıdır”.

Klinik psixoloq həmçinin autizmlə bağlı yayılan yanlış fikirlərə diqqət çəkib: “Ən vacib məsələlərdən biri valideynləri əsassız günahlandırmamaq və autizmi bir səbəbə bağlamamaqdır. Elmi araşdırmalar autizmin mürəkkəb və çoxamilli xüsusiyyət daşıdığını göstərir. Uşaqların valideynləri ilə də məşğul olmaq lazımdır. Çünki ilk travmanı alan valideynlər olur. Təəssüf ki, cəmiyyətimizdə autizm sindromlu bir uşaq görəndə onlardan qaçmağa, ehtiyat etməyə, qorxmağa başlayırlar. Onlar vəhşi deyil, qatil deyillər. Onlar da bizdən biridirlər. Sadəcə fərqlidirlər. Hər birimiz kimi onların da bu cəmiyyətdə yaşamaq haqqı var. Əyləncə məkanlarından, parklardan, teatr və kinolardan istifadə etməyə haqları var”.

***Yeganə BAYRAMOVA***

*İdman*

## Formula 1:
## Biz yenə Bakıdayıq!



Formula 1-in rəsmi feysbuk səhifəsində Bakıda keçiriləcək Azərbaycan Qran-Prisi ilə bağlı paylaşım edilib.

Paylaşımda “Biz yenə Bakıdayıq!” ifadəsi yer alıb və Azərbaycan paytaxtında yarış həftəsinin başladığı vurğulanıb.

Qeyd edək ki, yarış sentyabrın 24-26-da təşkil olunacaq.

## “UniversalNews”: Bakı idmanda beynəlxalq mövqeyini gücləndirir

İtaliya mətbuatı Azərbaycanda idmanın inkişafı və ölkənin beynəlxalq idman arenasında artan rolundan bəhs edən məqalə yayımlayıb.

AZƏRTAC xəbər verir ki, “UniversalNews” portalında dərc edilən “Bakı: idman inkişaf edir - Formula 1 şənbə günü keçirilir, futbol isə Avropada mövqeyini gücləndirir” başlıqlı yazıda Formula 1 və futbolun Azərbaycanın beynəlxalq idman xəritəsində mövqeyinin möhkəmlənməsində mühüm rol oynadığı bildirilib.

Məqalədə qeyd olunub ki, 2026-cı il Azərbaycan Qran-Prisi əvvəlki illərdən fərqli olaraq sentyabrın 26-da - şənbə günü keçiriləcək. Bildirilib ki, 2016-cı ildən Bakı Şəhər Halqasında təşkil olunan Formula 1 yarışı paytaxtın beynəlxalq tanıtımına da töhfə verib.

Yazıda Azərbaycan futbolundakı inkişaf da diqqətə çatdırılıb. “Qarabağ”ın uzun illər UEFA klub turnirlərində ölkəni təmsil etdiyi, “Sabah”ın isə son illərdə sürətli inkişaf yolu keçdiyi vurğulanıb. “Sabah”ın Çempionlar Liqasının əsas mərhələsində iştirakı Azərbaycanın klub futbolunda mühüm addım kimi təqdim edilib.

Məqalədə, həmçinin Bakının Formula 1, futbol və digər beynəlxalq idman yarışlarına ev sahibliyi etməsi, şəhərdə idman infrastrukturu və təşkilati imkanların inkişaf etdiyi qeyd olunub.

Yazının sonunda Formula 1 və futbolun Azərbaycanın beynəlxalq idman arenasında tanınmasına töhfə verdiyi, Bakının isə Qafqaz regionunda mühüm idman mərkəzlərindən birinə çevrildiyi bildirilib.



# İnsanabənzər robotlar erası başlayır

## Ötən il dünyada 7 min android satılıb



İnsanabənzər robotlar bazarı inkişafının yeni mərhələsinə qədəm qoyur. 2025-ci ildə dünyada təxminən 7 min belə robot satılıb. Bununla belə, onların robototexnika bazarının ümumi həcmi içərisində payı hələlik cüzi olaraq qalır, genişmiqyaslı praktiki tətbiqi isə yenicə formalaşır.

AZƏRTAC “Reuters” agentliyinə istinadla xəbər verir ki, Beynəlxalq Robototexnika Federasiyası (IFR) 2025-ci ilin yekunlarına əsasən, ilk dəfə insanabənzər robotları statistikasına daxil edib. Təşkilat bu kateqoriyaya zahirən insana bənzəyən və ilkin olaraq insanlar üçün nəzərdə tutulmuş mühitdə avtonom işləyə bilən robotları aid edir. Bu zaman robotların ayaqlarının olması məcburi şərt deyil, belə ki, onları təkərli platformalar da əvəz edə bilər.

Yeni seqmentin miqyası ənənəvi sənaye robototexnikası ilə müqayisədə xüsusilə nəzərə çarpır. 2024-cü ildə dünyada 4,66 milyondan çox sənaye robotu istismarda olub, yalnız bir il ərzində isə 542 mindən çox yeni robot quraşdırılıb. IFR-in 2025-ci il üzrə sənaye robotlarına dair məlumatları daha sonra açıqlanacaq.

Bununla belə, insanabənzər robotların hazırkı satış göstəriciləri onların istehsalatda geniş tətbiq olunması anlamına gəlmir. IFR-in məlumatına görə, ötən il satılan robotların əhəmiyyətli hissəsindən hələlik təlim, eksperiment və tədqiqat layihələrində istifadə olunur. Bu texnologiyanın əsas korporativ istifadəçilərindən olan avtomobil istehsalçıları, adətən ayrı-ayrı müəssisələrdə bir neçə robotdan onlarla robotadək yerləşdirirlər. IFR üç onillikdir sənaye robotları bazarı üzrə statistika toplayır, lakin insanabənzər robotlar ilk dəfə 2025-ci ilin yekunlarına əsasən bu statistikaya daxil edilib.

Beləliklə, insanabənzər robotların hazırkı bazarı artıq genişmiqyaslı avtomatlaşdırmanın formalaşdığını deyil, daha çox eksperimental mərhələdən sənaye seqmentinin formalaşmasına keçidi əks etdirir. Burada əsas məsələ istehsal olunan robotların sayından daha çox texnologiyaların real istehsal şəraitində faydalı vəzifələri yerinə yetirmək və iqtisadi baxımdan geniş miqyasda tətbiq olunmaq qabiliyyətidir.

Eyni zamanda, proqnozlar bazarın sürətlə böyüyə biləcəyini göstərir. “Bank of America Global Research” şirkətinin qiymətləndirməsinə görə, 2026-cı ildə dünyada təxminən 90 min insanabənzər robot tədarük edilə bilər ki, bu da əvvəlki illə müqayisədə təxminən 13 dəfə çoxdur. Proqnoza əsasən, 2030-cu ilədək tədarük həcmi 1,2 milyon ədədə çata bilər.

Bununla yanaşı, IFR-in statistikası yalnız korporativ sektorda mülki məqsədlər üçün nəzərdə tutulan insanabənzər robotları əhatə edir. Şəxsi, hərbi və tibbi məqsədlər üçün istifadə olunan robotlar bu göstəricilərə daxil edilmir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4446**
**Sifariş: 1238**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova